

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 avqust 2026-cı il, şənbə
№ 140 (7207)
Qiyməti 60 qəpik


# 8 avqust: Cənubi Qafqazın yeni tarixinin yazıldığı gün



## Sülhə aparan yol: Vaşinqton sammitindən ötən bir il



Bax səh. 2





Bax səh. 3

## Azərbaycan-ABŞ tərəfdaşlığı: Yeni geosiyasi dövrün əsas konturları

## Azərbaycan-Ukrayna: Strateji tərəfdaşlığın yeni mərhələsi



Bax səh. 4

### Azərbaycanın bank sektoru "Moody's"dən müsbət qiymət alıb

Bax səh. 5

### Qəbələ festivalı: Gənc ifaçının böyük səhnə arzusu

Bax səh. 6

### Fransada seçkiöncəsi informasiya savaşı...

Bax səh. 6

## Süni intellekt: Genişlənən fürsətlər, yoxsa artan təhdidlər?

Bax səh. 5




## Körfəzdə yeni gərginlik başlayır?

Bax səh. 6



## Dünya liderliyi uğrunda mübarizə

Bax səh. 7





# 8 avqust: Cənubi Qafqazın yeni tarixinin yazıldığı gün

## Sülhə aparan yol: Vaşinqton sammitindən ötən bir il

### Post-müharibə dövrünün sülh gündəliyi: Azərbaycanın yaratdığı yeni reallıq

Hər bir xalqın, dövlətin, hətta regionun tarixində elə anlar var ki, yaddaşlara həkk olur, gələcək yüzilliklər üçün yeni bir səhifə açır. 2025-ci ilin 8 avqust tarixi məhz belə bir gündür. Fasilələrlə 200 ildən artıq davam etmiş bir münaqişənin, bir qarşıdurmanın əbədi sülhə, əbədi sabitliyə keçid etməsi istiqamətində vacib bir gün...

Uzun illər müharibə, qarşıdurma və qarşılıqlı etimadsızlıqla xatırlanan Cənubi Qafqaz artıq yeni geosiyasi reallıqların formalaşdığı, əməkdaşlıq və inkişaf imkanlarının ön plana çıxdığı bir məkan kimi diqqət çəkir. Bir vaxtlar səngərlərin və dağıntıların simvoluna çevrilən bölgə bu gün sülh, sabitlik və inteqrasiya ideyalarının müzakirə olunduğu yeni dövrə qədəm qoyur.

Otuz ilə yaxın müddətdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğal siyasəti Cənubi Qafqazın inkişafına ən böyük maneələrdən biri oldu. Azərbaycan torpaqlarının uzun illər işğal altında saxlanılması, yüz minlərlə insanın doğma yurdlarından didərgin salınması, şəhər və kəndlərin dağıdılması regionda etimad mühitini tamamilə məhv etdi - bunun müqabilində isə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinə yönəlmiş uzunmüddətli danışıqlar nəticəsiz qaldı, beynəlxalq vasitəçilik mexanizmləri status-kvonun qorunmasından o yana keçə bilmədi.

Amma vəziyyət dəyişdi - məhz Azərbaycan bu vəziyyəti dəyişdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi bu ədalətsizliyə son qoyaraq beynəlxalq hüququn və tarixi ədalətin bərpasını təmin etdi. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə, regionda tamamilə yeni geosiyasi reallıq yaratdı. Müharibədə qalib gələn tərəf olmasına baxmayaraq, rəsmi Bakı revanşizm yolunu seçmədi. Əksinə, Prezident İlham Əliyevin irəli sürdüyü sülh gündəliyi Azərbaycanın gələcəyə baxışının əsasını təşkil etdi. Rəsmi Bakı dəfələrlə bəyan etdi ki, məqsəd yeni qarşıdurma yaratmaq deyil, Cənubi Qafqazı uzunmüddətli sabitlik, təhlükəsizlik və əməkdaşlıq məkanına çevirməkdir.

Məhz bu yanaşma regionun gələcəyinə hesablanmış yeni siyasi proseslərin əsasını qoydu. Kommunikasiyaların açılması, iqtisadi inteqrasiyanın genişlənməsi, qarşılıqlı etimadın formalaşdırılması və sülh sazişinin imzalanması istiqamətində atılan addımlar Azərbaycanın təşəbbüskar mövqeyinin göstəricisi kimi ön plana çıxdı. Bu siyasətin məntiqi davamı kimi 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli sammit Azərbaycanın sülh strategiyasının beynəlxalq səviyyədə real təsdiqi oldu. Bir il əvvəl baş tutmuş həmin görüş yalnız Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin başlanğıcı deyil, həm də Cənubi Qafqazın davamlı sülh, iqtisadi əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan gələcəyinin mümkünlüyünü nümayiş etdirən mühüm siyasi hadisə kimi tarixə düşdü. Regionun gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən bu sammit göstərdi ki, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi artıq təkcə milli prioritet deyil, həm də beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənən strateji baxışa çevrilməkdədir.

### Vaşinqton sammiti: Sülh prosesinin beynəlxalq təsdiqi

8 avqust 2025-ci il tarixi yeni bir mərhələnin başlanğıcı idi. Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar. Bununla yanaşı, xarici işlər nazirləri ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.

Bu, bir tarixi mərhələnin başa çatması idi. Azərbaycan son 5 ildə ilk dəfə idi ki, münaqişə nəticəsində torpaqlarını itirməmişdi, suverenliyini və ərazi bvtövlüyünü təmin etmişdi. Yeni tarixi mərhələnin müəllifi də Azərbaycan idi - sülhün müəllifi olduğu kimi. Bakının 2020-2025-ci il aralığında səsləndirdiyi mesajlar, gördüyü işlər, yaratdığı reallıqlar bunu tam təsdiqləyirdi. Nəhayət, Vaşinqtonda Bakının sülh gündəliyi təsdiqləndi - ən yüksək beynəlxalq səviyyədə...

Bu prosesdə ABŞ-ın, xüsusilə Prezident Donald Trampın rolu ayrıca vurğulanmalıdır. Hakimiyyətə qayıdışından sonra ötən dövr ərzində Tramp administrasiyası Azərbaycanla münasibətlərə xüsusi önəm verərək Cənubi Qafqazda Bakı tərəfindən formalaşdırılan yeni siyasi reallıqları açıq şəkildə dəstəklədi. Bu yanaşma ABŞ-ın regionda sabitliyə, təhlükəsizliyə və praqmatik əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi dəyərləndirilir. Trampın yanaşması klassik vasitəçilik modelindən fərqlənirdi. Burada əsas prinsip süni balans axtarışı deyildi - beynəlxalq hüquq çərçivəsində formalaşmış yeni vəziyyətin qəbul edilməsi və onu yeni imkanlara çevirmə istəyi idi. ABŞ-ın Azərbaycanın liderliyi ilə yaranmış regional düzəni dəstəkləməsi sülh prosesinə əlavə legitimlik qazandırırdı.

### Minsk qrupunun tarixə qovuşması: Köhnə mərhələnin rəsmi sonu

Vaşinqton görüşünün ən mühüm məqamlarından biri isə illərlə "Qarabağ münaqişəsi"nin həlli istiqamətində vasitəçilik missiyası daşıyan, amma bu missiyanı yerinə yetirməyən ATƏT-in Minsk qrupunun ləğvinin reallaşması istiqamətində ilk addımın atılması oldu. Vurğulandığı kimi, Vaşinqtonda imzalanan müvafiq sənədlə Azərbaycan və Ermənistan ATƏT-in sədrliyinə birgə müraciət etdi - daha sonra ATƏT Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanması yekunlaşdırıldı. Bu barədə ATƏT xüsusi bəyanat qəbul etdi. Bildirildi ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir.

Vurğulandığı kimi, ATƏT-in Minsk qrupunun fəaliyyətinin və strukturlarının tam şəkildə ləğv olunması Azərbaycanın 30 ildən artıq davam edən siyasi və diplomatik mübarizəsinin məntiqi yekunu kimi dəyərləndirilməlidir. Bu addım yalnız bir institutun formal olaraq fəaliyyətini dayandırması deyildi - eyni zamanda, regionda yaranmış yeni reallıqların beynəlxalq səviyyədə növbəti təsdiqi mənasını verirdi. Minsk qrupu uzun müddət ərzində münaqişənin həlli üçün mandat daşımış, lakin faktiki olaraq nəticə əldə etməmişdi. Azərbaycanın 2020-ci il qələbəsi, daha sonra isə suverenliyinin tam bərpası bu strukturun artıq gərəksiz olduğunu bir daha ortaya qoymuşdu. Beləliklə, ATƏT-in rəsmi qərarı həmin geosiyasi reallığın hüquqi-siyasi təsdiqi kimi xarakterizə olundu. Bu həm də onu göstərdi ki, Cənubi Qafqazda sülh və təhlükəsizlik modelini artıq Azərbaycanın qətiyyəti müəyyən edir - beləliklə, təməli Vaşinqtonda qoyulan Minsk qrupunun ləğvi prosesi Azərbaycanın diplomatik qələbəsinin növbəti mərhələsi olmaqla yanaşı, beynəlxalq institutların da yeni şərtlərə uyğunlaşmasının vacibliyini ortaya qoydu.

### Zəngəzur (TRIPP) dəhlizi: İqtisadi nizamın strateji xətti

2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanan üçtərəfli Birgə Bəyannamə isə iqtisadi-ticari nizama yeni bir yön, yeni bir istiqamət qazandırdı. Birgə Bəyannamədə deyilirdi: "Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək aşağıdakıları bəyan edirik:

1. Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;

2. Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

3. Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

4. Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

5. Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

6. Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

7. Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik".

Bu Bəyannamədə əks olunan müddəalar göstərirdi ki, yeni reallıqlar fonunda Cənubi Qafqaz artıq qapalı geosiyasi məkan deyil, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji körpü kimi çıxış edəcək. Bu Bəyannamə Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələrinin, regionun iqtisadi xəritəsinin yenidən formalaşdırılması, ölkəmizin rolunun əsas aparıcı qüvvə kimi möhkəmləndirilməsinin məntiqi təsdiqi idi. Bu kontekstdə Zəngəzur dəhlizi (TRIPP) ideyası təkcə regional layihə kimi deyil, qlobal əhəmiyyət daşıyan meqalayihə kimi ortaya çıxdı. Vaşinqtonda siyasi təsdiqini əldə edən Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsü yeni dövrdə Cənubi Qafqaz üçün tamamilə fərqli inkişaf perspektivləri vəd edir. Bu layihə regionun tranzit imkanlarını genişləndirir, iqtisadi inteqrasiyanı sürətləndirir və uzunmüddətli sabitliyin əsas dayaqlarından birinə çevrilir. Azərbaycanın yaratdığı yeni reallıqlar isə bir daha göstərir ki, ölkəmizin apardığı siyasət yalnız milli maraqlara deyil, bütövlükdə regionun inkişafına xidmət edir.

Zəngəzur dəhlizinin (TRIPP) reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaratdı. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edəcək. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Başqa sözlə, dəhliz ətraf dövlətlərin də iqtisadi maraqlarına cavab verən amil kimi çıxış edir. Eyni zamanda, Zəngəzur dəhlizi (TRIPP) təhlükəsiz marşurut sayılır. İnfrastruktur baxımından da Zəngəzur dəhlizi (TRIPP) olduqca əlverişlidir. Zəngəzur dəhlizinin (TRIPP) ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.

Paralel olaraq bu dəhliz Ermənistanın yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirəcək. Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) açılması Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Belə ki, Zəngəzur dəhlizi Ermənistanın regional ticarət yollarına çıxışını bərpa etməyə və daha böyük iqtisadi məkana inteqrasiya olunmağa imkan verəcək. Dəhliz vasitəsilə Ermənistan daha böyük xarici bazarlara çıxış imkanı qazanacaq.

### Yeni geosiyasi konsepsiyanın başlanğıcı...

Vaşinqton sammitindən ötən bir il göstərdi ki, 8 avqust 2025-ci il yalnız diplomatik təqvimdə növbəti görüş deyildi. Həmin tarix Cənubi Qafqazın gələcək inkişaf modelini müəyyənləşdirən yeni geosiyasi konsepsiyanın başlanğıcı oldu. İlk dəfə olaraq regionun gündəliyi münaqişənin idarə olunması deyil, sülhün möhkəmləndirilməsi, iqtisadi inteqrasiyanın genişləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın qurulması üzərində formalaşdı. Bu prosesin əsas müəllifi isə hərbi qələbəsini siyasi və diplomatik nəticəyə çevirə bilən Azərbaycan oldu.

Ötən bir il ərzində formalaşan reallıq bir daha təsdiqlədi ki, dayanıqlı sülh yalnız beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və qarşılıqlı öhdəliklərə əsaslandıqda uzunömürlü ola bilər. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi, kommunikasiya xətlərinin açılması, yeni nəqliyyat marşrutlarının yaradılması və regional əməkdaşlıq perspektivləri Cənubi Qafqazın uzun illər davam edən geosiyasi parçalanmasına alternativ inkişaf modeli təqdim etdi.

Bu gün regionun gələcəyi artıq qarşıdurma ilə deyil, əməkdaşlıq potensialı ilə qiymətləndirilir. Vaşinqtonda əsası qoyulan siyasi iradənin ardıcıl şəkildə həyata keçirilməsi Cənubi Qafqazı Avrasiya məkanının mühüm logistika, enerji və ticarət mərkəzlərindən birinə çevirə bilər. Bütün bunlar göstərir ki, 8 avqust 2025-ci ildə başlanan proses təkcə iki ölkə arasında münasibətlərin normallaşması deyil, həm də regionun gələcək onilliklər üçün inkişaf istiqamətini müəyyən edən strateji dönüş nöqtəsidir. Tarix isə bu günü Cənubi Qafqazda yeni geosiyasi dövrün və davamlı sülh mərhələsinin başlanğıcı kimi xatırlayacaq.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan-ABŞ tərəfdaşlığı: Yeni geosiyasi dövrün əsas konturları

Son iki il ərzində Azərbaycan-ABŞ münasibətləri yeni məzmun və dinamika qazanaraq qarşılıqlı etimad və praqmatik əməkdaşlıq əsasında inkişaf etməyə başlayıb. Xüsusilə Donald Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Vaşinqtonun Cənubi Qafqaza yanaşmasında müşahidə olunan dəyişikliklər Bakı ilə münasibətlərdə də özünü aydın şəkildə göstərdi. Yeni mərhələdə regional reallıqların qəbuluna, sabitliyin təmin edilməsinə və iqtisadi əməkdaşlığın genişləndirilməsinə

## Bakı - Vaşinqton münasibətlərinin inkişaf dinamikası

əsaslanan daha praqmatik xətt ön plana çıxıb. Bu isə Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqların Vaşinqton tərəfindən nəzərə alındığını nümayiş etdirir.

Azərbaycan da öz növbəsində ABŞ ilə münasibətlərdə qarşılıqlı maraqlar prinsipini əsas götürərək enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat marşrutları, terrorizmlə mübarizə, regional sabitlik və iqtisadi əməkdaşlıq kimi istiqamətlərdə dialoqu daha da dərinləşdirdi. Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına təhlükəsiz çatdırılmasında Azərbaycanın oynadığı rol, Orta Dəhlizin artan əhəmiyyəti, eləcə də Cənubi Qafqazda formalaşan yeni təhlükəsizlik arxitekturası Vaşinqtonun Bakı ilə əməkdaşlığı strateji prizmadan qiymətləndirməsinə səbəb oldu.

Bu yeni mərhələnin ən mühüm siyasi ifadəsi isə 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli sammit oldu. ABŞ Prezidenti Donald Trampın ev sahibliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş təkcə Azərbaycan - Ermənistan münasibətlərində deyil, həm də Bakı - Vaşinqton əlaqələrinin tarixində yeni səhifə açdı. Sammit göstərdi ki, ABŞ artıq Azərbaycanı yalnız regionun aparıcı dövləti kimi deyil, həm də Avrasiya məkanında sülhün, enerji təhlükəsizliyinin və nəqliyyat-kommunikasiya layihələrinin əsas tərəfdaşlarından biri kimi qiymətləndirir. Məhz buna görə də Vaşinqton sammiti iki ölkə arasında münasibətləri ənənəvi əməkdaşlıq formatından çıxararaq, daha yaxın strateji tərəfdaşlıq müstəvisinə yüksəldən mühüm siyasi dönüş nöqtəsi kimi tarixə düşdü.





Vurğulandığı kimi, Cənubi Qafqazda formalaşan yeni sülh şəraitinin siyasi və diplomatik təsdiqi kimi dəyərləndirilən 8 avqust görüşü regionun gələcəyi baxımından da mühüm dönüş nöqtəsi kimi qiymətləndirildi. Xüsusilə, görüş zamanı imzalanan “Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması” Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatdı - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrində mühüm ştrixləri ortaya çıxardı. Belə ki, sənədin imzalanması Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığının göstəricisi sayılırdı - sənədə görə, ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet saydığını bildirirdi. Eyni zamanda, iki ölkə arasındakı əməkdaşlıq institusional çərçivədə müəyyənləşdirilirdi - başqa sözlə, münasibətlərin inkişaf imkanları artıq siyasi bəyanatlarla deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaqdı. ABŞ ilə Azərbaycan arasında dialoqun daha da genişlənməsi və şaxələnməsinə imkan yaradan bu sənəd təhlükəsizlik və müdafiə, enerji və yaşıl keçid, iqtisadiyyat və investisiya, re-



## Strateji Tərəfdaşlıq Xartiyası: Münasibətlərin institusional çərçivəsi

gional sabitlik və nəqliyyat dəhlizləri, humanitar əlaqələrdə də yeni format müəyyənləşdirdi.

Bu il fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində imzalanan Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya ikitərəfli münasibətlərə yeni bir status qazandırdı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə ən yeni mərhələsinin başlanğıcına çevrildi. Qeyd edək ki, Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir.

**Cənubi Qafqazda formalaşan yeni sülh şəraitinin siyasi və diplomatik təsdiqi kimi dəyərləndirilən 8 avqust görüşü regionun gələcəyi baxımından da mühüm dönüş nöqtəsi kimi qiymətləndirildi. Xüsusilə, görüş zamanı imzalanan “Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması” Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatdı - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrində mühüm ştrixləri ortaya çıxardı. Belə ki, sənədin imzalanması Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığının göstəricisi sayılırdı - sənədə görə, ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet saydığını bildirirdi**

8 avqust görüşündən sonra münasibətlər sisteminin yeni mərhələsində bir sıra amillər diqqəti cəlb edir - xüsusilə, Azərbaycan-ABŞ münasibətlərində artıq davamlı yaxınlaşmalar, siyasi dialoqun inişafı nəzərə çarpır. Prezident Trampın son bir ildə artıq bir neçə dəfə Prezident İlham Əliyevlə görüşməsi,

## Yeni əməkdaşlıq modeli: Regional təhlükəsizlik və qlobal tərəfdaşlıq

fərqli kontekstlərdə müzakirələrin aparılıması, Cənubi Qafqazın yeni gələcəyinin formalaşdırılması istiqamətində Azərbaycanın irəli sürdüyü strateji yol xəritəsinin dəstəklənməsi, sülhün və sabitliyin qorunmasına xidmət edən yaxınlaşmaların təqdir olunması göstərir ki, Bakı-Vaşinqton əlaqələri sağlam və dinamik xarakter daşıyır. Azərbaycanı hər zaman özünün strateji tərəfdaşı kimi xarakterizə edən rəsmi Vaşinqton əməkdaşlığın çoxşaxəli olmasında maraqlı olduğunu ortaya qoyur.

Azərbaycanın sülh təşəbbüsləri bütövlükdə Cənubi Qafqaz, eləcə də Mərkəzi Asiya və başqa yaxın coğrafiyalar üçün mühüm inkişaf perspektivləri yaradır. Bu mənada aparılan siyasət, atılan addımlar beynəlxalq aləm tərəfindən ciddi izlənir - Zəngəzur (TRIPP) dəhlizi ideyası, Orta Dəhlizin dirçəldilməsi, enerji və yaşıl gündəlik layihələri və digər məqamlar Azərbaycanın sülh təşəbbüslərinin çoxşaxəli olduğunu ortaya qoyur.

ABŞ - Azərbaycan münasibətlərində beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində yaxın əməkdaşlıq xüsusi xəttlə keçir. Qarşılıqlı etimad və maraqlar əsasında qurulan əlaqələr hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına da töhfədir. Azərbaycan Prezidentinin bu il yanvarın 22-də Davosda “Sülh Şurasının Nizamnaməsi” (“Board of Peace Charter”) sənədini imzalaması da təsadüfi deyil - Bakı bu gün qlobal təhlükəsizliyin təminatında Vaşinqtonun ən yaxın strateji tərəfdaşlarından biridir.

## 907-ci düzəlişin dayandırılması: Keçmişin siyasi mirasına son

2025-ci ilin avqustunda Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalanması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-n Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi. Beləliklə, 907-ci düzəlişin dayandırılması uzun illər Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması deməkdir. ABŞ-ın bu addımı onu göstərir ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçib. Xatırladaq ki, bu əsassız düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Keçmiş prezident Co Bayden isə bu düzəlişin həyata keçməsində mühüm rol oynayıb. Prezident İlham Əliyev Ağ Evdə mətbuata bəyanatında ABŞ Prezidentinə məhdudiyyətlərin aradan qaldırılmasına görə təşəkkür etdi: “Azərbaycana qarşı həmin məhdudiyyətlər 1992-ci ildə - müstəqilliyinin bərpasından bir il sonra tətbiq edilib. Bizə qarşı tətbiq edilmiş bu məhdudiyyət 33 ildən sonra bu gün aradan qaldırıldı. Həqiqətən bu gün Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq”.

907-ci düzəlişin ləğvi Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması demək idi. ABŞ-ın bu addımı onu göstərdi ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçir. Bu düzəlişin tam ləğvi isə həm regional, həm də ikitərəfli siyasi dialoqun gücləndirilməsində, regionda əməkdaşlığın stimullaşdırılmasında və Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirməsində əsaslı rola malik ola bilər. Bu addım həm tarixi ədalətsizliyi aradan qaldıracaq, həm də ABŞ-ın Cənubi Qafqazda yeni reallıqlara dəstəyini gücləndirəcək. Nəticə etibarilə, Bakı ilə Vaşinqton arasındakı münasibətlərin gücləndirilməsi, 907-ci düzəlişin ləğvi və regional əməkdaşlıq layihələrinin reallaşması Cənubi Qafqazın gələcək inkişaf xəttini müəyyənləşdirəcək əsas elementlərdəndir. Bu proses həm Azərbaycan, həm də ABŞ üçün qarşılıqlı fayda və strateji üstünlüklər yaradır. Yeri gəlmişkən, bu ilin iyulunda Qlobal Şuşa Media Forumunda çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, həmin düzəliş tamamilə köhnəlib və tam ləğv edilməlidir: “Düşünürəm ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün bir o qədər yaxşı olar”.

Son 1 ildə proseslərin inkişafı göstərdi ki, Azərbaycan-ABŞ münasibətləri artıq yalnız ayrı-ayrı istiqamətlər üzrə əməkdaşlıq formatı ilə məhdudlaşmır. Formalaşan yeni siyasi mühit ikitərəfli əlaqələri daha geniş strateji müstəviyə çıxararaq onları regional və qlobal proseslərin mühüm elementlərindən birinə çevirib. Vaşinqtonda qəbul olunan qərarlar, imzalanan sənədlər və sonrakı dövrdə atılan addımlar onu təsdiqləyir ki, tərəflər əməkdaşlığı uzunmüddətli perspektiv əsasında inkişaf etdirmək niyyətindədir.

Bu gün Azərbaycanın geosiyasi mövqeyi, enerji təhlükəsizliyinə verdiyi töhfə, beynəlxalq nəqliyyat marşrutlarının inkişafındakı rolu və regional sabitliyin təmin edilməsində nümayiş etdirdiyi məsuliyyət ABŞ üçün ölkəmizi etibarlı tərəfdaş kimi ön plana çıxarır. Digər tərəfdən, Vaşinqtonun Cənubi Qafqaz siyasətində yaranmış reallıqları nəzərə alması və regionun gələcəyinə praqmatik yanaşması qarşılıqlı etimadın daha da möhkəmlənməsinə şərait yaradır. Bu baxımdan münasibətlər artıq taktiki əməkdaşlıq deyil, ortaq maraqlara söykənən strateji tərəfdaşlıq mərhələsinə daxil olur.

## Strateji dönüş nöqtəsi...

Eyni zamanda, Bakı ilə Vaşinqton arasında formalaşan yeni dialoq regional sabitliyin möhkəmləndirilməsi, nəqliyyat-kommunikasiya layihələrinin genişləndirilməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi, innovasiya, rəqəmsal transformasiya və investisiya əməkdaşlığı üçün də yeni imkanlar açır. Bu əməkdaşlıq modeli təkcə iki ölkənin milli maraqlarına xidmət etmir, həm də Cənubi Qafqazın qlobal iqtisadi və siyasi sistemə daha sıx inteqrasiyasına mühüm töhfə verir.

Bütün bunların fonunda demək olar ki, 8 avqust 2025-ci ildə başlanan yeni mərhələ Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişaf trayektoriyasını müəyyən edən strateji dönüş nöqtəsidir. Qarşılıqlı etimad, bərabərhüquqlu tərəfdaşlıq və ortaq maraqlara əsaslanan bu model yaxın illərdə ikitərəfli əlaqələrin daha da dərinləşməsinə, regionda davamlı sülhün möhkəmlənməsinə və yeni geosiyasi əməkdaşlıq arxitekturasının formalaşmasına mühüm töhfə verəcək. Bu baxımdan Bakı-Vaşinqton xətti təkcə iki dövlət arasında münasibətlərin deyil, bütövlükdə Avrasiya məkanında sabitlik və inkişafın əsas dayaqlarından biri kimi əhəmiyyətini daha da artıracaq.

***P.İSMAYILOV***

# Azərbaycan-Ukrayna: Strateji tərəfdaşlığın yeni mərhələsi

Müstəqil Azərbaycanın çoxvektorlu xarici siyasət kursu milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanır. Ölkəmiz bu prinsiplərə istinad etməklə regional və qlobal müstəvidə geniş diapozona malik fəal diplomatiya həyata keçirir. Bu kontekstdə Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin yaxın və uzaq coğrafiyalarda yerləşən dövlətlərə səfərlərinin intensivləşməsi də xüsusi önəm daşıyır. Bunun təsdiqi olaraq qeyd edək ki, elə bugünlərdə xarici işlər naziri Ceyhun Bayramov Ukraynaya rəsmi səfər edib.

Səfər çərçivəsində Ceyhun Bayramov bu ölkənin yüksəksəviyyəli rəsmi şəxsləri ilə görüşüb və bir sıra mühüm tədbirlərə qatılaraq aktual müzakirələr aparıb. Müzakirələrin qayəsi strateji tərəfdaşlığın mövcud və gələcək vəziyyətinin keyfiyyətcə yeni mərhələ kimi xarakterizə olunması üzərində qurulub.

Azərbaycan XİN rəhbərinin indiki həssas dönəmdə Ukraynaya səfəri iki baxış bucağından xüsusi əhəmiyyət daşıyır. Birincisi, bu səfər Bakının Kiyevlə münasibətlərdə genişləndirilmiş vizyonunu ortaya qoyur. Bu, perspektiv üçün qarşılıqlı dəstək mexanizmlərinin inteqrasiyasından tutmuş, uzunmüddətli dövrdə daha dərinləşdirilmiş strateji əlaqələrin potensialını nümayiş etdirir.

Digər tərəfdən, XİN başçısının Ukraynaya səfəri ümumi kontekstdə Azərbaycanın münasibətləri inkişaf etdirmək təşəbbüsləri ilə regional problemlərin həllinə töhfə səylərini birləşdirir. Azərbaycan həm Ukrayna, həm də Rusiya ilə əlaqələrə önəm verir. Rəsmi Bakı hər iki tərəflə konstruktiv münasibətlərini qoruyaraq, münaqişənin yalnız siyasi-diplomatik vasitələrlə, BMT Nizamnaməsi, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyini vurğulayır və ölkəmizin bu prinsipial mövqeyi Kiyevdə müxtəlif səviyyələrdə keçirilən görüşlərdə bir daha vurğulanıb.

## Azərbaycan XİN rəhbərinin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü



Azərbaycanla Ukrayna arasında ali səviyyədə təşəkkül tapmış fəal siyasi dialoq ikitərəfli əməkdaşlığımızın iqtisadi, ticarət, humanitar, mədəniyyət və digər sahələrində inkişafa təkan verir və münasibətlərimizin məzmunca zənginləşməsinə zəmin yaradır. İkitərəfli münasibətlərin dərinləşməsində iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya və parlamentlərarası dostluq qrupu platformaları mühüm rol oynayır. Eyni zamanda, Azərbaycan və Ukrayna ikitərəfli formatla yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığı uğurla davam etdirirlər. İndiyədək iki ölkə arasında 160-dan çox sənəd imzalanıb. Hazırda Azərbaycanla Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında uğurla inkişaf edir.

Qeyd etdiyimiz kimi, ikitərəfli münasibətlərin dərinləşməsinə yüksəksəviyyəli rəsmilərin qarşılıqlı səfərləri və müntəzəm hal alan təmaslar öz müsbət təsirini göstərir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov dost ölkəyə rəsmi səfəri çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski tərəfindən qəbul edilib. Xarici İşlər Nazirliyindən verilən məlumatda bildirlir ki, görüş zamanı Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoq, enerji, nəqliyyat, humanitar əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Ukrayna arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin inkişafının önəmi vurğulanıb. Gələn il diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd olunacağı, ötən dövr ərzində yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd edilib.

Prezident Zelenskinin cari ilin aprel ayında Azərbaycana həyata keçirdiyi səfərin və səfər çərçivəsində əldə olunmuş razılaşmaların ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsi baxımından əhəmiyyət daşıdığı bildirilib.

Görüşdə regional təhlükəsizlik məsələləri, Ukraynada mövcud vəziyyət, habelə beynəlxalq gündəlikdə duran digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstək verdiyi bir daha diqqətə çatdırılıb.

Son illərdə Prezident İlham Əliyevin imzaladığı müvafiq sənədlərə uyğun olaraq respublikamızdan müharibə vəziyyətində olan dost Ukraynaya davamlı şəkildə humanitar yardım karvanları yola salınır. Bu yardımlar sırasında enerji avadanlığı və digər zəruri tələbat malları xüsusi yer tutur. Paralel şəkildə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da Ukraynaya yardım kampaniyasında fəal iştirak edir. İndiyədək Mehriban Əliyevanın təşəbbüsü ilə Ukraynadan olan çoxlu sayda uşaq respublikamıza gətirilib. Ukraynalı uşaqlar Azərbaycanda həm dincəliblər, həm də onlara reabilitasiya xidmətləri göstərilib. Azərbaycanın xarici işlər naziri ilə görüşdə Prezident Zelenski Ukraynaya humanitar dəstəyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib. Görüşdə Azərbaycan ilə Ukrayna arasında münasibətlərin bundan sonra da inkişaf etdirilməsi və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə dair ortaq niyyət ifadə olunub.

## Ukrayna Prezidenti Cənubi Qafqazda münaqişədənsonrakı reallıqlar barədə məlumatlandırılıb

Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı parlaq qələbələr sayəsində regionda yeni reallıqlar yaradıb. Məhz bu reallıqların sayəsində region müharibə risklərindən qurtulub. Ötən il avqustun 8-də Vaşinqtonda Donald Trampın iştirakı ilə Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin xarici işlər nazirləri tərəfindən paraflanmasından ötən bir ildə regionda real sülh şəraiti hökm sürür. Artıq iki ölkə arasında etimad quruculuğu prosesi başlayıb və bu kontekstdə vətəndaş cəmiyyətlərinin nümayəndələrinin Bakıda və İrəvanda bir neçə görüşü baş tutub. O cümlədən Azərbaycan sülhə sadiqliyini nümayiş etdirməklə öz ərazisindən Ermənistana tranzit daşımalarına imkan yaradıb. Respublikamız, həmçinin Ermənistana strateji əhəmiyyətli enerji məhsullarının ixracını həyata keçirir.

Münaqişədənsonrakı dönəmin ən mühüm reallıqlarından biri isə qalib Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirməsidir. Məsuliyyətli və güclü dövlət olan Azərbaycan Qarabağı dünyanın ən gözəl guşələrindən birinə çevirmək əzmindədir. Artıq Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı uğurla yekunlaşmaq üzrədir və yeni Dövlət Proqramının qəbul edilməsi də gündəlikdədir.

Ceyhun Bayramov "X" sosial şəbəkəsində paylaşımında görüş zamanı Ukrayna Prezidentinə Cənubi Qafqazda münaqişədənsonrakı reallıqlar, sülh gündəliyinin irəlilədilməsi istiqamətində göstərilən səylər, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verdiyini bildirib.

Xarici işlər naziri, həmçinin Prezident Volodimir Zelenskinin Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımla bağlı xoş sözlərini və davamlı dəstəyə görə Prezident İlham Əliyevə ünvanladığı təşəkkürü yüksək qiymətləndirdiyini vurğulayıb.






## C.Bayramov: Zərurət yaranarsa...

İki ölkənin iqtisadi əməkdaşlığında energetika sektoru xüsusi yer tutur. Azərbaycanın SOCAR şirkəti Ukraynada uğurla fəaliyyət göstərir. Hazırda SOCAR-ın bu ölkədə çoxlu sayda yanacaqdoldurma məntəqəsi, neft bazası mövcuddur. Qurumun Ukraynadakı fəaliyyətini genişləndirməsinə hər iki tərəf maraqlıdır. SOCAR-ın Ukraynadakı "SOCAR Energy Ukraine" törəmə şirkəti neft məhsullarının pərakəndə və topdansatış seqmentlərində fəaliyyət göstərir. Şirkətdə qurulan kollektiv iş və peşəkar yanaşma SOCAR-ın Ukraynada layihələrinin səmərəli şəkildə həyata keçirilməsini təmin edir.

SOCAR-ın digər qurumları da Ukraynada müxtəlif enerji layihələrinə qoşulublar. Məsələn, SOCAR AQŞ Ukraynada mühəndislik konsaltinq xidmətinin göstərilməsi layihəsini icra edib.

"Azərbaycan ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq vacib elementlərdən biridir". Bu fikri Ceyhun Bayramov ukraynalı həmkarı Andrey Sibiqa ilə keçirdiyi mətbuat konfransında səsləndirib. "Enerji əməkdaşlığından danışarkən, ilk növbədə, qeyd etmək istərdim ki, Azərbaycanın dövlət neft şirkəti olan SOCAR uzun illərdir Ukrayna bazarında mövcuddur. Hazırda SOCAR Ukraynada fəaliyyətini aktiv şəkildə davam etdirir və inanırıq ki, şirkətin gələcək üçün böyük planları var", - deyə Ceyhun Bayramov əlavə edib.

Nazir deyib ki, Azərbaycan ilə Ukrayna arasında enerji sahəsində, eləcə də nümayəndə heyətləri, həmkarlar arasında yeni dinamika, enerji sahəsində əməkdaşlığın əlavə elementləri barədə çox dinamik və fəal dialoq aparılıb.

C.Bayramov qeyd edib ki, bu gün Azərbaycan dünyanın 16 ölkəsinə, o cümlədən 10-u Avropa İttifaqının üzvü olmaqla ümumilikdə 12 Avropa ölkəsinə qaz tədarük edir. "Zərurət yaranarsa, dost Ukraynaya da qaz tədarük etməkdən məmnun olarıq. Eyni zamanda, Azərbaycan ilə Ukrayna arasında daha geniş coğrafiyanın enerji təhlükəsizliyi baxımından əməkdaşlıq imkanı da mövcuddur", - deyə Ceyhun Bayramov əlavə edib.

Ukraynanın XİN rəhbəri Andrey Sibiqa da ölkəsinin Azərbaycanla enerji əməkdaşlığını genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. "Azərbaycan biznesi Ukraynada daim fəal olub və biz bu fəaliyyətin daha da genişləndirilməsini arzu edirik. Azərbaycanlı dostlarımız üçün təkliflər paketimiz var. Biz Ukraynaya enerji təchizatının şaxələndirilməsində maraqlıyıq. Ümumiyyətlə, Azərbaycan enerji təhlükəsizliyi nöqteyi-nəzərindən bütün Avropa, o cümlədən Ukrayna üçün strateji əhəmiyyətə malikdir. Biz bunun üzərində fəal şəkildə işləyirik və əminəm ki, əhəmiyyətli nəticələr əldə edəcəyik", - deyə ukraynalı nazir vurğulayıb.

## Baş diplomatlar ikitərəfli münasibətləri və regiondakı vəziyyəti müzakirə ediblər

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kiyevə rəsmi səfəri çərçivəsində ukraynalı həmkarı Andrey Sibiqa ilə birlikdə Ukraynanın azadlığı uğrunda həlak olmuş müdafiəçilərin Xatirə Memorialına gül dəstəsi qoyub.

Azərbaycan və Ukrayna xarici işlər nazirləri arasında keçirilmiş təkbətək görüşdən sonra nümayəndə heyətləri arasında geniştərkibli görüş keçirilib. Görüşdə Azərbaycan-Ukrayna münasibətləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər iki ölkə arasında mövcud olan müttəfiqlik münasibətlərinin qarşılıqlı hörmət və milli maraqların nəzərə alınması əsasında inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu çərçivədə ali və yüksək səviyyədə əldə olunmuş razılaşmaların icra vəziyyəti nəzərdən keçirilib.

Regional məsələlər ətrafında müzakirələr kontekstində Azərbaycanın Ukraynada hərbi əməliyyatların dayandırılması, münaqişənin beynəlxalq hüquq əsasında diplomatik yollarla həll edilməsinə tərəfdar olduğu bildirilib, ölkəmizin Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstəyi bir daha təsdiq olunub.

Ukrayna xarici işlər naziri hərbi əməliyyatlar zamanı Qara dəniz və Azov dənizində Azərbaycan vətəndaşlarının həlak olması və yaralanması ilə əlaqədar başsağlığı və dərin hüzn ifadələrini çatdırıb, həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralananlara isə tezliklə şəfa diləyib.

Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardım, o cümlədən hərbi eskalasiyanın başlanmasından etibarən 50 milyon ABŞ dollarını aşan dəstək, İrpen şəhərində həyata keçirilən bərpa layihələri, ukraynalı uşaqlar üçün reabilitasiya proqramları, eləcə də mina təmizləmə sahəsində göstərilən yardım barədə danışılıb.

## Azərbaycanın xarici işlər naziri İrpen şəhərində

Artıq 4 ildən çoxdur ki, davam edən müharibə Ukraynanın İrpen şəhərində də ciddi dağıntılara səbəb olub. Ölkəmiz bu şəhərdə müharibənin vurduğu ziyanın aradan qaldırılmasına öz dəstəyini göstərib. İrpen şəhəri son illər Azərbaycan ilə Ukrayna arasında tarixi dostluq münasibətlərinin və humanitar əməkdaşlığın bariz nümunəsinə çevrilib. Azərbaycanın Laçın şəhəri ilə qardaşlaşmış şəhərlər əlaqələrinə malik İrpen şəhərində akademik Zərifə Əliyevanın adını daşıyan park, küçə və lisey fəaliyyət göstərir, liseydə Azərbaycan dili tədris olunur.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ukraynaya rəsmi səfəri çərçivəsində İrpen şəhərində olub. Nazir Ceyhun Bayramov əvvəlcə Əməkdar elm xadimi, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad edib.

Ceyhun Bayramov sonra Azərbaycan hökumətinin yardımı və dəstəyi nəticəsində bərpa olunmuş İrpen Şəhər Mərkəzi Poliklinikasına baş çəkib.

Nazir Ceyhun Bayramova məlumat verilib ki, Azərbaycan hökumətinin yardımı ilə İrpendə fəal hərbi əməliyyatlar zamanı ciddi ziyan dəymiş şəhər poliklinikasının bərpası tez bir zamanda başa çatdırılaraq Ukrayna hakimiyyət orqanlarına təhvil verilib. Bu tibb müəssisəsi Azərbaycan hökumətinin dəstəyi və Ukraynanın enerji sektorunda aparıcı Azərbaycan brendi olan "SOCAR Ukraine" şirkətinin maliyyə dəstəyi ilə təmir edilib. Poliklinikanın fasadı və dam örtüyü yenilənib, bütün pəncərələr dəyişdirilib, müasir yanğından mühafizə və havalandırma sistemləri quraşdırılıb. Eyni zamanda, obyektin zirzəmisində tamamilə yeni sığınacaq tikilib.

Ceyhun Bayramov sonra Azərbaycan hökumətinin yardımı və dəstəyi nəticəsində bərpa olunmuş akademik Zərifə Əliyeva adına 12 saylı İrpen Humanitar "Linqvist" liseyinə gəlib. Zərifə xanım Əliyevanın adını daşıyan muzeylə tanışlıq zamanı bildirilib ki, Prezident İlham Əliyevin göstərişi ilə məktəb qısa zamanda əsaslı təmir edilib.

Eyni zamanda, elektrik enerjisi probleminin həlli məqsədilə orta məktəb generatorla da təmin olunub.

Ceyhun Bayramov daha sonra Azərbaycan hökuməti tərəfindən planlaşdırılan yenidənqurma layihələri ilə tanış olub. Qeyd edilib ki, Azərbaycan dövləti İrpendə daha 4 irimiqyaslı yenidənqurma layihəsi həyata keçirməyi planlaşdırır.

*Mübariz ABDULLAYEV*

# Süni intellekt: Genişlənən fürsətlər, yoxsa artan təhdidlər?

İnsan zəkasının məhsulu olan süni intellekt (Sİ) eyni zamanda insan həyatının ayrılmaz hissəsinə çevrilib. Onun rolu getdikcə artmaqdadır. Hətta bir sıra hallarda obrazlı şəkildə belə ifadə olunur ki, Sİ bütün dünyanı özünün nəhəng və möcüzəli gəmisinə alıb, bizi gələcəyə doğru aparır.

Süni intellekt hər gün insanları elə qeyri-adiliklərlə rastlaşdırır ki, Sİ-nin quracağı gələcək barədə hansısa bir proqnozun uzunmüddətli olacağına əminlik yoxdur. Yeganə konkretlik ondan ibarətdir ki, Sİ dünyasında hər şey sürətlə dəyişir. Bu dəyişikliklərin insanların qarşısında yeni imkanlar açdığı, daha geniş fürsətlər yaratdığı birmənalı şəkildə qəbul olunur. Ancaq gözlənilən risklər və təhdidlər də böyükdür və mütəxəssislər bununla bağlı həyəcan təbili çalmağa başlayıblar.

**İnsanın özü və yaxud ən yaxın köməkçisi**

Hazırda süni intellektin rolu və tətbiq sahələri o qədər yüksək səviyyədədir ki, hətta bir sıra hallarda Sİ asanlıqla insanın özünü əvəzləyir. Ancaq əlbəttə ki, süni intellekt insan deyil və "Sİ insanın ən yaxın köməkçisidir və onun işini böyük dərəcədə asanlaşdırır" demək daha doğrudur. Beləliklə, süni intellektin bəzi faydalarına qısa nəzər salaq.

Tarixə ekskurs etsək görərik ki, hansısa bir intellektə malik maşınlar və digər süni aparatlar barədə yazılı fikirlərə hələ qədim yunan miflərində rast gəlinir. Müasir dövrdə dünyada süni intellekt termini ilk dəfə 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunub. Bundan sonra ayrı-ayrı ölkələrdə hökumətlər və şirkətlər səviyyəsində ağıllı proqramların yaradılmasına təşəbbüslər göstərilməsinə və investisiyalar yönəldilməsinə baxmayaraq, gözlənilən nəticələr alınmayıb. Beləliklə də, 1974-cü ildə süni intellekt sahəsində tədqiqatların maliyyələşdirilməsi dayandırılıb.

Lakin bu, müvvəqqəti geriçəkilmə idi. Dünya süni intellektin cazibəsindən kənara çıxa bilməmişdi və super kompüterlərin istehsalına başlanılması ilə süni intellektin yeni və geriyədönməz erası start götürüb. Süni intellekt erasında əsas hadisələrdən biri 1997-ci ildə yaşandı - şahmat üzrə o zamankı dünya çempionu H. Kasparov "Deep Blue" super kompüterinə uduzdu. Bunun proqnozu isə daha əvvəl verilmişdi. Belə ki, Sİ-nin əsasını qoyanlar sırasında yer alan Nobel mükafatı laureatları Herbert Saymon və Allen Nyuell hələ 1958-ci ildə 10 il sonra rəqəmsal kompüterin şahmat üzrə dünya çempionu olacağı fikrini səsləndirmişdilər. İddialar təxminən 40 il gecikmə ilə olsa da, özünü doğrultdu. Artıq 2000-ci illər kompüterləri böyük verilənləri asanlıqla emal etmək iqtidarında idi. Bir neçə onilliklən sonra isə dünya süni intellekt erasının tərəddüdlü mərhələsindən tam inamlı dövrünə keçid edib.

**Sİ-nin tətbiq sahələri genişlənir**

Hazırda süni intellektin tətbiq sahələri kifayət qədər genişdir. Sİ vaxtı optimallşdırmaqda, az zaman kəsiyində daha çox iş görməkdə, faydalı nəticələr verməkdə , çətin işləri asanlaşdırmaqda əvəzsiz vasitədir. Bu gün süni intellektin LİSP, Proloq, FRL və OPS kimi proqramlaşdırma dilləri mövcuddur. "OpenAI" tərəfindən hazırlanan Chat GPT (Generative Pre-trained Transformer) insan dilini başa düşə və təfərrüatlı şəkildə insan kimi mətn hazırlaya bilən süni intellekt chatbotunun prototipi, qabaqcıl dil modelidir. İstifadəçilər süni intellektdən esse, şeir və ya skript yazmağı, hətta mətni tərcümə etməyi və ya ümumiləşdirməyi istəyə bilərlər. O, həmçinin müxtəlif mövzularda suallara cavab verə və ya kodlaşdırma problemlərini həll edə bilər. "Chat GPT" proqramının istifadəçilərinin sayı hazırda kifayət qədər çoxdur.

Tibb sahəsində süni intellektin tətbiqi sürətlə genişlənir. Sİ sistemləri diaqnostikada, müalicə planlarının hazırlanmasında və xəstəliklərin proqnozlaşdırılmasında istifadə olunur. Məsələn, radioloji görüntülərin analizində süni intellekt alqoritmləri həkimlərə daha sürətli və dəqiq diaqnoz qoymağa kömək edir. Bu, xüsusən də xərçəng kimi ciddi xəstəliklərin erkən mərhələdə aşkarlanması üçün böyük əhəmiyyətə malikdir. Bundan başqa, hər bir xəstənin genetik məlumatları və xəstəlik tarixi nəzərə alınmaqla Sİ tərəfindən xəstəyə ən uyğun müalicə üsulu təklif edilə bilər.



Belə görünür ki, süni intellekt bundan sonra təhsil sahəsində tələbələrin və tədqiqatçıların ən yaxın köməkçisinə çevriləcək və yaxud artıq çevrilib. Hazırda Sİ texnologiyaları təhsil sahəsində tələbələrin fərdi istəklərinə uyğunlaşdırılmış tədris proqramlarının hazırlanmasında əhəmiyyətli rol oynayır. Adaptiv öyrənmə sistemləri, tələbənin bilik səviyyəsini və öyrənmə tərzini nəzərə alaraq, ona ən uyğun tədris materiallarını təqdim edir. Bu, hər bir tələbənin potensialını maksimum dərəcədə inkişaf etdirməyə kömək göstərir. Süni intellektdən həmçinin müəllimlər də yararlanırlar. Sİ texnologiyası təhsilin effektiv idarəçiliyinə əvəzolunmaz üstünlüklər qazandırıb. Məsələn, avtomatik qiymətləndirmə sistemləri, test və imtahanların sürətlə və dəqiq şəkildə qiymətləndirilməsinə imkan verir ki, bu da təhsil sahəsində ilk növbədə obyektivliyin təmin olunması baxımından müstəsna önəm daşıyır.

Artıq müxtəlif sənaye sahələrində robotlar və avtomatlaşdırılmış sistemlər insan əməyini əvəz edir və işlərin daha sürətli və dəqiq yerinə yetirilməsinə şərait yaradır. Eləcə də Chatbotlar və səsli köməkçilər müştəri sorğularına cavab verərək, şirkətlərin müştəri məmnuniyyətini artırmasına kömək edir. Bu texnologiyalar, 24/7 xidmət göstərərək, müştərilərin problemlərinin tez və effektiv həll olunmasını təmin edir.

Süni intellekt texnologiyaları gündəlik həyatımızda da əvəzolunmaz rol oynayır. Məsələn, ağıllı ev sistemləri evdə enerji sərfiyyatını optimallaşdırır, təhlükəsizlik sistemləri isə evlərimizi daha etibarlı edir.

Süni intellektin hərb sahəsinə nüfuz etməsi mühüm yenilikdir. Qabaqcıl Sİ texnologiyaları sayəsində döyüş meydanında ağır hərbi texnikaların əhəmiyyəti qalmayıb. Hədəflər nöqtə atəşləri ilə vurulur, ön xətdə robotlar vuruşur, hətta ən müasir qırıcı təyyarələr belə Sİ vasitəsi ilə idarə olunur. Bir sözlə, süni intellektin həyatımıza gətirdiyi yeniliklərin və yaratdığı fürsətlərin sayı-hesabı yoxdur və biz onun üstünlüklərindən getdikcə daha çox bəhrələnirik.

**Mütəxəssislərin hazırladıqları hesabat - həyəcan təbili çalınmasına ciddi əsaslar var**

Fürsətlərlə yanaşı, Sİ-nin riskləri də kifayət qədər böyükdür və bununla bağlı narahatlıqlar da artmaqdadır. Beynəlxalq ekspertlərin süni intellektin yaradacağı risklər barədə hesabat hazırlamaları da artan narahatlıqlardan qaynaqlanır. Süni intellekt genişmiqyaslı kiberhücumlara, silahların hazırlanmasına, artan işsizliyə, ətraf mühitə dəyən ziyana və az sayda şirkət arasında hakimiyyətin cəmləşməsinə səbəb ola bilər. Bu risklər 37 ölkədən olan 272 mütəxəssis tərəfindən "Süni intellektdən gələn risklərin prioritetləşdirilməsi" adlı hesabatda yer alıb.

Ekspertlər 2030-cu ilə qədər aktual olacaq 24 süni intellekt risk kateqoriyasını qiymətləndiriblər. Tədqiqatda fəlakətli zərərlər arasında bir milyondan çox ölüm, 100 milyard dollardan çox maliyyə itkisi və ya demokratik normalara, vətəndaş hüquqlarına, sosial sabitliyə ziyan vurulması kimi amillər yer alıb.

Ekspertlər 24 riskdən 18-də fəlakətli zərər ehtimalını 10 faizdən yuxarı qiymətləndiriblər.

**Silahlar və kiberhücumlar**

Ekspertlər süni intellektlə təchiz olunmuş silahların və kiberhücumların fəlakətli zərər verə biləcəyi ehtimalını 21 faiz qiymətləndiriblər. Süni intellekt daha təsirli və zərərli proqram təminatının, muxtar silahların, kimyəvi, bioloji, radioloji və ya nüvə təhdidlərinin hazırlanmasına kömək edə bilər.

**Təhlükəli süni intellekt imkanları**

Ən yüksək ehtimal - 21,5 faiz süni intellekt sistemlərinin təhlükəli imkanlar əldə etməsi ilə əlaqələndirilib. Bunlara insanları aldatmaq və manipulyasiya etmək, kiberəməliyyatlar aparmaq, silahların hazırlanmasına kömək göstərmək və daha inkişaf etmiş süni intellekt sistemlərinin yaradılmasına töhfə vermək qabiliyyəti daxildir. Bu cür imkanlar insanlar tərəfindən sui-istifadə edilə bilər, lakin zərər sistemdəki nasazlıqlardan və ya insan məqsədləri ilə ziddiyyət təşkil edən davranışlardan da yarana bilər.

**Gücün bir qrupun əlində cəmləşməsi**

Ekspertlər güc və resursların konsentrasiyasından fəlakətli zərər ehtimalını 18 faiz olaraq qiymətləndiriblər. Qabaqcıl süni intellekt çoxlu məlumat, hesablama gücü və investisiya tələb edir. Nəticədə, ən güclü sistemlər məhdud sayda korporasiya və hökumətin nəzarəti altında qala bilər. Hesabatda deyilir: "Gücün mərkəzləşməsi bəlkə də ən ciddi və davamlı riskdir, çünki süni intellekti inkişaf etdirən eyni qurumlar onun faydalarını əldə etmək üçün ən yaxşı mövqedə olurlar və bu da texniki müdaxilələr vasitəsilə geri qaytarılması çətin olan dinamika yaradır".

**Şirkətlər və dövlətlər arasında rəqabət**

Süni intellektin inkişafındakı rəqabət dinamikasına fəlakətli zərər ehtimalı 16,6 faiz olaraq təyin edilib. Getdikcə daha güclü sistemlərin buraxılması uğrunda yarış şirkətləri və hökumətləri təhlükəsizlik testlərini azaltmağa və ya riskləri tam qiymətləndirmədən modelləri yerləşdirməyə təşviq edə bilər. Hesabata görə, təhlükəsizliyə investisiya qoymaq əsas şərtlərdən biridir.

**İşsizlik və bərabərsizlik**

Süni intellekt iş yerlərini avtomatlaşdıra, məşğulluq keyfiyyətini azalda və qabaqcıl texnologiyalara nəzarət edənlərlə cəmiyyətin qalan hissəsi arasındakı boşluğu genişləndirə bilər. Praqmatik təhlükəsizlik tədbirlərini əhatə edən bir ssenaridə belə, mütəxəssislər bərabərsizlik və işsizlikdən qaynaqlanan fəlakətli zərər ehtimalını 11 faiz qiymətləndiriblər.

**Ətraf mühitə dəyən ziyan**

Böyük süni intellekt modellərinin hazırlanması və istismarı artan miqdarda elektrik enerjisi, su, hesablama infrastrukturu və ixtisaslaşmış avadanlıq tələb edir. Hətta praqmatik azaldılma ssenarisi altında belə, ətraf mühitə dəyən ziyan 12 faiz ehtimalını qoruyub saxlayıb. Ekspertlər qeyd ediblər: "Ağır data infrastrukturu və böyük modellər daha çox enerji istehlak etməyə, resurs təzyiqinə səbəb olmağa davam edəcək".

**Mediaya və dövlət qurumlarına etimadın azalması**

Süni intellekt kütləvi miqyasda inandırıcı saxta mətnlər, səslər, şəkillər və videolar yarada bilər. Bu, məlumatların yoxlanılmasını çətinləşdirə, siyasi manipulyasiyanı asanlaşdıra, mediaya və dövlət qurumlarına etimadı sarsıda bilər.

Yalan məlumatlara fəlakətli zərər ehtimalı 12,8 faiz qiymətləndirilib. İştirakçıların 22,1 faizi dezinformasiya və təsir məsələsini ən böyük üç narahatlıq arasında göstərib.

**Yeni ekoloji risklər**

Süni intellektlə bağlı risklər qarşıdakı onillik üçün ən böyük 10 qlobal risk sırasında ilk yerlərdə qərarlaşıb. İqtisadi, geosiyasi və sosial risklər ekoloji və texnoloji risklərlə qarşılıqlı əlaqədədir.

Dünyada süni intellekt texnologiyalarının sürətli inkişafı iqlim sahəsində - hava proqnozlarının dəqiqləşdirilməsi, biomüxtəlifliyin qorunması və təbii fəlakət risklərinin azaldılması kimi istiqamətlərdə mühüm faydalar yaradır. Lakin texnologiya ciddi ekoloji və etik təsirlərə malikdir və bu istiqamətdə narahatlıqları artırır.

Süni intellektin ətraf mühitə təsiri əsasən modellərin öyrədilməsi zamanı sərf olunan yüksək enerji, AI alətlərinin gündəlik istifadəsi zamanı yaranan hesablama yükü, onu təmin edən məlumat mərkəzlərinin soyudulması üçün istifadə olunan su ehtiyatları və avadanlıqların yaratdığı karbon izi ilə bağlıdır. "OpenAI" şirkətinin baş icraçı direktoru Sem Altmanın sözlərinə görə, "ChatGPT" ilə ünsiyyətdə sadəcə "zəhmət olmasa" və "təşəkkür edirəm" kimi ifadələrin işlədilməsi belə daha çox enerji sərfiyyatına səbəb olur və bu, on milyonlarla dollar həcmində əlavə hesablama xərci yaradır.

Məlumata görə, "OpenAI" şirkəti GPT-3 modelinin öyrədilməsi üçün təxminən 1287 meqavat-saat elektrik enerjisi sərf edib ki, bu da ABŞ-da 120-dən çox ev təsərrüfatının 1 il ərzində istifadə etdiyi enerji miqdarına bərabərdir.

Araşdırmalara əsasən, qlobal miqyasda süni intellektdən istifadə zamanı yaranan su istehlakının 2027-ci ildə 4,2-6,6 milyard kubmetrə çatacağı proqnozlaşdırılır ki, bu da Danimarkanın 1 il ərzindəki ümumi su istehlakından 4-6 dəfə çoxdur.

Bununla belə, süni intellektlə bağlı emissiyaların ölçülməsi üçün hələ də vahid standart mövcud deyil.

Ekspertlər hesab edirlər ki, süni intellektin potensial imkanları böyük olsa da, onun ətraf mühitə və cəmiyyətə mənfi təsirləri ilə açıq şəkildə üzləşmək, bu sahədə tənzimləyici mexanizmləri və şəffaflığı gücləndirmək zəruridir.

**Sİ sahəsində dünyada ilk hüquqi tənzimləmə mexanizmi**

Bir neçə gün bundan əvvəl Avropa İttifaqında (Aİ) Süni İntellekt Aktının (AI Act) şəffaflıq tələblərini nəzərdə tutan yeni müddəaları qüvvəyə minib. Bununla da süni intellektdən istifadə zamanı məzmunun mənşəyinin açıqlanması və istifadəçilərin məlumatlandırılması ilə bağlı yeni öhdəliklərin tətbiqinə başlanılıb.

Avropa Komissiyasının yaydığı məlumata əsasən, yeni qaydalar vətəndaşların süni intellekt texnologiyalarına etimadını artırmaq, dezinformasiyanın qarşısını almaq və süni intellekt sistemlərindən məsuliyyətli istifadəni təmin etmək məqsədi daşıyır.

Qaydalara əsasən, istifadəçilər süni intellekt sistemi ilə qarşılıqlı əlaqədə olduqları barədə məlumatlandırılmalıdır. Generativ süni intellekt vasitəsilə hazırlanan məzmunun tanınması təmin edilməli, xüsusilə "deepfake" materiallar, eləcə də ictimai maraq doğuran mövzular üzrə süni intellekt tərəfindən yaradılmış mətnlər aydın və görünən şəkildə işarələnməlidir.

Məlumatda, həmçinin bildirilib ki, süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə istifadəçilərin hansı məzmunun insan, hansının isə süni intellekt tərəfindən yaradıldığını ayırd edə bilmələri şəffaflığın və fundamental hüquqların qorunmasının mühüm şərtidir. Yeni tələblərin həm də manipulyasiya və yanlış məlumatların yayılması riskini azaltmağa xidmət edəcəyi vurğulanır.

Qeyd edək ki, "AI Act" dünyada süni intellekt sahəsində qəbul edilmiş ilk hərtərəfli hüquqi tənzimləmə hesab olunur. Risk əsaslı yanaşmaya söykənən sənəd müxtəlif AI sistemləri üçün fərqli tələblər müəyyənləşdirir, yüksək riskli tətbiqlər üçün ciddi öhdəliklər formalaşdırır, insanların təhlükəsizliyi və hüquqları üçün qəbuledilməz hesab olunan bəzi süni intellekt təcrübələrini isə qadağan edir. Aİ hesab edir ki, yeni hüquqi çərçivə innovasiyanın inkişafı ilə yanaşı, süni intellektdən təhlükəsiz, şəffaf və insanyönümlü istifadəni də təşviq edəcək.

*Mübariz FEYİZLİ*

# Azərbaycanın bank sektoru "Moody's"dən müsbət qiymət alıb




"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın "Baa3" kredit reytinqini "müsbət" proqnozla təsdiqləyib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq reytinq agentliyinin hesabatında ölkəmizin bank sistemində aparılan prudensial siyasət və tətbiq olunan requlyativ kapital tələbləri yüksək qiymətləndirilib.

"Nəzarət çərçivəsinin və prudensial tənzimləmənin beynəlxalq standartlara uyğunluğunun təkmilləşdirilməsi bank sektorunun dayanıqlılığını gücləndirən əsas amillərdəndir. Tətbiq olunan kapital tələbləri bankların ödəmə qabiliyyətini artırır", - deyə hesabatda bildirilir.

Eyni zamanda, agentlik Azərbaycanda Bazel III çərçivəsində yeni kapital buferlərinin tətbiq edildiyini, Bazel III standartlarına tam uyğunluğun isə 2027-ci ildə təmin olunmasının gözlənildiyini qeyd edib.

# Qəbələ festivalı: Gənc ifaçının böyük səhnə arzusu



Qədim musiqi ənənələrini yaşadan tar və kamança bu gün də beynəlxalq səhnələrdə Azərbaycan mədəniyyətini layiqincə təmsil edir. Bu il keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında çıxış edən gənc musiqiçilər - kamança ifaçısı Aişə Binnətzadə Orucova və tar ifaçısı Əmrah Orucov milli musiqimizi özünəməxsus ifaları ilə tamaşaçılara təqdim ediblər.

Festivaldan aldıqları təəssüratlar, birgə səhnə təcrübəsi, Azərbaycan musiqisinin dünyada tanıdılması və gələcək hədəfləri barədə kamança ifaçısı Aişə Orucova suallarımızı cavablandırıb.

**- Aişə xanım, Qəbələ Beynəlxalq Musiqi Festivalı ilə bağlı təəssüratlarınızı bölüşərdiniz. Belə nüfuzlu festivalın səhnəsində çıxış etmək sizin üçün nə ifadə edir?**

- Qəbələ Beynəlxalq Musiqi Festivalı hər bir musiqiçi üçün çox dəyərli bir layihədir. Belə nüfuzlu festivalda çıxış etmək həm böyük qürur, həm də böyük məsuliyyətdir. Uşaqlıqdan bu festivala böyük marağımız olub, hər zaman onun dinləyicisi olmuşuq. Hər bir musiqiçi kimi, bizim də bu səhnədə çıxış etmək arzumuz idi. Şükürlər olsun ki, bu arzumuz artıq gerçəkləşib.

**- Bu festival iştirak etdiyiniz digər tədbirlərdən nə ilə fərqlənir?**

- Əslində bu, tar və kamança ifaçısı olaraq birlikdə qatıldığımız ilk festival idi. Ayrı-ayrılıqda isə müxtəlif müsabiqə və festivallarda dəfələrlə çıxış etmişik.

**- Qəbələdə ifa etdiyiniz əsərlər necə seçilmişdi? Proqram hazırlanarkən nələrə diqqət yetirdiniz?**

- Proqramı hazırlayarkən əsas məqsədimiz milli musiqimizin zənginliyini və gözəlliyini tamaşaçılara təqdim etmək idi. Xalq mahnıları və retro bəstəkar mahnılarını özümüzə məxsus aranjımanda təqdim etdik. İfalarımız auditoriya tərəfindən böyük maraq və rəğbətlə qarşılandı.

**- Azərbaycan musiqisini dünyaya tanıtmaq baxımından beynəlxalq festivalların rolu nədir?**

- Düşünürəm ki, belə festivallar milli musiqimizin tanıdılması baxımından çox böyük əhəmiyyət daşıyır. Musiqi universal bir dildir və bu cür tədbirlər vasitəsilə insanlar Azərbaycan mədəniyyətini daha yaxından tanıyırlar. Bu, həm də ölkəmizin zəngin mədəni irsinin dünyaya təqdim olunması üçün mühüm imkan yaradır.

**- Fərqli ölkələrin musiqiçiləri ilə eyni səhnəni bölüşmək sizə nə qazandırıb?**

- Bu təcrübə mənə həm peşəkar, həm də şəxsi baxımdan çox şey qazandırıb. Müxtəlif ifaçılıq məktəbləri ilə tanış olmaq, onların musiqiyə yanaşmasını yaxından görmək olduqca maraqlıdır. Belə görüşlər insanın inkişafına təkan verir və yeni layihələr üçün ilham mənbəyinə çevrilir.

**- Gələcəkdə iştirak etməyi arzuladığınız beynəlxalq festivallar varmı?**

- Əlbəttə. Dünyanın müxtəlif ölkələrində keçirilən nüfuzlu festivallarda çıxış etməyi və Azərbaycan musiqisini daha geniş auditoriyaya təqdim etməyi arzulayırıq. Çıxış etdiyimiz hər yeni səhnə həm dəyərli təcrübə, həm də ölkəmizi tanıtmaq üçün yeni imkan deməkdir.



**- Sizcə, tar və kamança bu gün dünya səhnəsində kifayət qədər tanınırmı?**

- Son illərdə tar və kamançaya maraq xeyli artıb. Bununla belə, düşünürəm ki, bu alətlərin dünya səhnəsində daha geniş tanınması üçün görüləcək işlər hələ çoxdur. Beynəlxalq festivallar, ortaq layihələr və müasir təqdimat formaları bu baxımdan mühüm rol oynayır.

**- Milli musiqimizi gənclərə və xarici auditoriyaya sevdirmək üçün daha nələr etmək lazımdır?**

- İlk növbədə, milli musiqimizi müasir təqdimat üsulları ilə auditoriyaya çatdırmalıyıq. Gənclərin maraq göstərdiyi platformalarda daha fəal olmalı, keyfiyyətli audio və video layihələr hazırlamalı, beynəlxalq əməkdaşlıqları genişləndirməliyik. Milli musiqimizi qorumaqla yanaşı, onu dövrün tələblərinə uyğun şəkildə təqdim etmək də çox vacibdir.

**- Gənc musiqiçilərə hansı tövsiyələri verərdiniz?**

- İlk növbədə onlara səbirli olmağı və daim öz üzərlərində çalışmağı tövsiyə edərdim. Musiqi böyük zəhmət və sevgi tələb edən bir sənətdir. Milli musiqimizi dərindən öyrənsinlər, ustad sənətkarlardan bəhrələnsinlər, eyni zamanda, dünyada baş verən musiqi yeniliklərini də izləsinlər. Ən əsası isə öz kimliklərini və milli dəyərlərini hər zaman qorusunlar.

**Söhbətləşdi: Havar Şəfiyeva**

# Körfəzdə yeni gərginlik başlayır?

## Türkiyə - Pakistan - Səudiyyə Ərəbistanı üçlü təhlükəsizlik koalisiyası qurulur

Yaxın və Orta Şərqdə, xüsusilə Körfəz regionunda mövcud gərginliklər daha da arta bilər. Belə ki, xarici media yazır ki, Səudiyyə Ərəbistanı yəmənli Husilər, iranpərəst İraq milisləri və İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) tərəfindən krallığa hücumlara hazırlıq görüldüyünə dair kəşfiyyat məlumatları alıb. Əl-Ərəbiyyənin bu barədə məsələ ilə tanış olan mənbəyə istinadən yaydığı məlumatda bildirilir ki, İranın dəstəklədiyi qüvvələr və İİKK-nın Səudiyyə Ərəbistanına hücum etməyə hazırlaşdığını göstərən etibarlı kəşfiyyat məlumatları var. Mənbə iddia edir ki, əldə edilən məlumatlar hücumlara hazırlıqda koordinasiya olduğunu göstərir. Eləcə də, toplanan kəşfiyyat məlumatlarına mümkün eyni vaxtda hücumlara hazırlıq məqsədilə raket və pilotsuz təyyarələrin hərəkətlərinin müşahidələri daxildir. Əlavə edilib ki, potensial hücumlar kritik infrastruktur, hava limanları və dəniz limanları da daxil olmaqla, mülki və enerji obyektlərini hədəf ala bilər. Agentliyin mənbəyinə görə, Səudiyyə Ərəbistanı hər hansı bir təcavüzə cavab olaraq bütün zəruri tədbirləri görməkdən çəkinməyəcək.

Avqustun əvvəlində "Wall Street Journal" qəzeti xəbər vermişdi ki, Səudiyyə Ərəbistanı da daxil olmaqla, Körfəz ölkələri ABŞ Prezidenti Donald Trampı İrana qarşı yeni zərbələrdən imtina etməyə və danışıqlara başlamağa inandırıb. Nəşrin məlumatına görə, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Trampı münaqişənin qızışmasının qarşısını almaq üçün diplomatiya yolu ilə getməyə çağırıb. ABŞ-ın regiondakı müttəfiqləri də uzun sürən münaqişə ilə bağlı narahatlıqlar fonunda Vaşinqtondan əlavə hava hücumundan müdafiə vasitələri və təhlükəsizlik zəmanətləri istəyiblər.



### Səudiyyə Ərəbistanı təhlükəsizlik tədbirlərini gücləndirir

Bir neçə gün öncə isə Səudiyyə Ərəbistanı Qırmızı dəniz və Ədən körfəzində dəniz təhlükəsizliyini artırmaq üçün çoxmillətli müdafiə koalisiyasının yaradılacağını açıqlayıb. Yeni alyansın məqsədi regionda artan təhlükələrə qarşı birgə mübarizə aparmaq və dəniz nəqliyyatının təhlükəsizliyini təmin etməkdir. Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyinin sözçüsü, briqada generalı Turki əl-Maliki dəniz təhlükəsizliyinə artan təhdidlərə qarşı çoxmillətli dəniz müdafiə koalisiyasının yaradılacağını bildirib. Əl-Maliki bildirib ki, təşəbbüs regionda müdafiə sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyır. O qeyd edib ki, regionda və dünyada "real və yeni yaranmaqda olan" təhlükələr mövcuddur. Hər bir ölkənin öz maraqlarını qorumaq üçün lazımi hərbi və ya siyasi tədbirləri görmək hüququ olduğunu bildirən Əl-Maliki, mövcud təhlükələrin ölkələr arasında daha çox koordinasiya və əməkdaşlığı zəruri etdiyini vurğulayıb. Səudiyyə Ərəbistanı Müdafiə Nazirliyinin sözçüsü Yəməndə qanuni hökuməti dəstəkləyən koalisiyanın dəniz təhdidləri ilə mübarizədə əldə etdiyi təcrübənin yeni quruluşun yaranmasında rol oynadığını da xatırladıb. Əl-Maliki dəniz minaları və pilotsuz uçuş aparatları (PUA) kimi təhdidlərə qarşı aparılan işlərin dəniz təhlükəsizliyi sahəsində əməkdaşlığı yaxşılaşdırdığını da qeyd edib. O, Səudiyyə Ərəbistanının koalisiyanın daimi qərargahı və komanda mərkəzinə ev sahibliyi edəcəyini də açıqlayıb.

Bu addımın regional və beynəlxalq təhlükəsizliyin gücləndirilməsində Ər-Riyadın rolunu əks etdirdiyini söyləyən Əl-Maliki koalisiyanın Bab əl-Məndəb boğazı, Qırmızı dəniz və Ədən körfəzində dəniz təhlükəsizliyini artırmağı hədəflədiyini qeyd edib. Bildirilib ki, yeni formasiya regionda ümumi maraqları qorumaq və dəniz nəqliyyatının təhlükəsizliyini təmin etmək üçün fəaliyyət göstərəcək.

Bu arada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünən səhər saatlarında Səudiyyə Ərəbistanına səfər edib. Prezident Ərdoğanın işgüzar səfər çərçivəsində Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd bin Salman və Pakistanın Baş naziri Şahbaz Şərif ilə görüşü planlaşdırılıb. Təhlükəsizlik mənbələri Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın üçtərəfli müdafiə sazişi imzalayacağı haqda xəbər yaymışdılar. Bildirilirdi ki, Pakistan ABŞ-İran müharibəsinə son qoymaq üçün vasitəçilik səylərində iştirak edib, Türkiyə isə Qəzzada atəşkəsin təmin edilməsində fəal diplomatik rol oynayıb.

### Üçtərəfli müqavilə nə vəd edir?

Qeyd edək ki, 2025-ci ildə Pakistan və Səudiyyə Ərəbistanı arasında uzun illər davam edən hərbi əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmaq məqsədilə Strateji Qarşılıqlı Müdafiə Sazişi (Strategic Mutual Defence Agreement - SMDA) imzalanıb. Sazişdə qeyd olunub ki, tərəflərdən birinə qarşı silahlı hücum hər iki dövlətə qarşı hücum kimi qiymətləndiriləcək və qarşılıqlı müdafiə prinsipi tətbiq olunacaq. Bundan başqa, hərbi kəşfiyyat məlumatlarının mübadiləsi genişləndiriləcək, birgə hərbi təlimlər və müdafiə planlaşdırılması gücləndiriləcək. Eləcə də, sazişə görə, hava hücumundan müdafiə, raket sistemləri və digər strateji hərbi sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, müdafiə sənayesi və silah istehsalı sahəsində birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Türkiyənin də iştirakı ilə üçtərəfli sazişin imzalanması isə geosiyasi cəhətdən daha böyük əhəmiyyət daşıyır. Analitiklərin fikrincə, Körfəz regionundakı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, regional təhlükəsizlik təminatlarına dair suallara cavab tapılması bu müqavilənin aparıcı məqsədi ola bilər. Eləcə də, Pakistanın nüvə silahına malik yeganə müsəlman dövləti olması müqavilənin imkanlarını daha da genişləndirir.

Bir məqam isə bu müqavilənin bizə yaxın coğrafiya üçün də mühüm əhəmiyyət kəsb etməsidir. Bəlli olduğu kimi, Türkiyə Azərbaycanın rəsmi müttəfiqidir. Pakistan isə ölkəmizə yaxın qardaş dövlət sayılır.

***SADİQ***

# Fransada seçkiöncəsi informasiya savaşı...

## Hökumət xarici müdaxilələrə qarşı yeni qanun hazırlayır

Fransada 2027-ci il prezident seçkiləri yaxınlaşdıqca xarici müdaxilə və dezinformasiya təhlükəsi siyasi gündəmin əsas mövzularından birinə çevrilib. Son həftələrdə prezidentliyə mümkün namizədlər - Edouard Filip, Rafael Qlüksmann və Qabriel Attal Rusiya mənşəli saxta məlumat kampaniyalarının hədəfinə çevriliblər.

AZƏRTAC xəbər verir ki, Fransanın xarici rəqəmsal müdaxilələrlə mübarizə aparan "Viginum" xidməti avqustun 4-də Qabriel Attala qarşı həyata keçirilən informasiya əməliyyatını aşkarlayıb. Saxta reportajlar, videolar və Fransa mediasının - "RFI", "BFMTV", "France 24", "AFP", "Le Monde" və digər nəşrlərin vizual kimliyindən istifadə edilərək, hazırlanmış materialların Rusiyayönümlü "Matrioşka" şəbəkəsi ilə əlaqəli olduğu bildirilib.

Qabriel Attal bu hücumlardan sonra Kreml tərəfindən gələcəkdə də siyasi namizədlərə qarşı belə əməliyyatların davam etdiriləcəyini bildirib. Onun komandası isə kiberhücumlara qarşı əlavə təhlükəsizlik tədbirləri gördüyünü açıqlayıb.

Daha əvvəl Edouard Filip və Rafael Qlüksmann da saxta məlumat kampaniyalarının hədəfinə çevrilmişdilər. Filipin səhhəti ilə bağlı yayılan yalan xəbərlər onun tərəfdarları tərəfindən xarici müdaxilə cəhdi kimi qiymətləndirilib. Rafael Qlüksmann isə sosial şəbəkələrdə yayılan saxta məlumatlarla bağlı bildirib ki, bu hücumlar 2027-ci il seçki kampaniyasında daha geniş miqyas ala bilər. "Bu hücum qarşıdan gələnlərin yalnız başlanğıcıdır. 2027-ci il kampaniyası kütləvi müdaxilələrlə yadda qala bilər", - deyə Qlüksmann xəbərdarlıq edib.




Xarici müdaxilə təhlükəsi Fransa hökumətini də hərəkətə keçirib. Baş nazir Sebastyən Lökornü bildirib ki, seçki proseslərinin etibarlılığını qorumaq üçün yeni qanun layihəsi hazırlanır. Hökumətin planına əsasən, seçki dövründə saxta məlumatların yayılmasına görə cəzalar sərtləşdiriləcək. Yeni mexanizm belə hallarda cəzanın üç ilədək həbsə və 45 min avro cəriməyə qədər artırılmasını nəzərdə tutur. Bundan əlavə, aşkarlanmış xarici müdaxilə hallarının siyasi partiyalar və aidiyyəti qurumlarla avtomatik paylaşılması üçün xüsusi protokol yaradılacaq.

Fransanın "Əyilməz Fransa" (La France insoumise LFİ) partiyasının lideri Jan-Lük Melanşon prezidentliyə namizədləri seçki kampaniyasını pozmağa yönəlmiş müdaxilələrə qarşı ümumi cəbhə yaratmağa çağırıb. Bununla belə, Fransada müzakirələr yalnız xarici dezinformasiyalarla məhdudlaşmır. Bəzi siyasətçilər sosial şəbəkələrin, xüsusilə də X platformasının alqoritmlərinin demokratik proseslərə təsiri barədə də narahatlıq ifadə edirlər.

# Dünya liderliyi uğrunda mübarizə

## ABŞ, Çin və yeni qlobal sistemin gələcəyi

**Amerika əsrindən Çin əsrinə keçid mümkündürmü?**
**Dünya güc balansının tarixi dəyişməsi**

XXI əsrin ən böyük geosiyasi sualı artıq yalnız dövlətlərin hərbi gücü, iqtisadi imkanları və texnoloji üstünlükləri ilə bağlı deyil. Əsas məsələ ondan ibarətdir ki, gələcək beynəlxalq sistemi hansı güc mərkəzləri formalaşdıracaq və qlobal qaydaları kim müəyyən edəcək. Tarix göstərir ki, dünya liderliyi heç vaxt dəyişməz olmayıb. Müxtəlif dövrlərdə fərqli dövlətlər beynəlxalq sistemin əsas istiqamətlərini müəyyən ediblər. XVI əsrdə İspaniya dəniz ticarəti və müstəmləkə imperiyası vasitəsilə qlobal təsirə malik idi. XVII əsrdə Niderland maliyyə və ticarət üstünlüyü ilə ön plana çıxmışdı. XIX əsrdə Böyük Britaniya sənaye inqilabı, güclü donanması və qlobal ticarət şəbəkəsi hesabına "üzərində günəş batmayan imperiya" statusunu əldə etmişdi. XX əsrdə isə ABŞ iqtisadi, hərbi, texnoloji və siyasi imkanların birləşməsi nəticəsində dünyanın əsas güc mərkəzinə çevrildi. Lakin tarixdə hər bir lider dövlətin qarşısında eyni sual dayanıb: mövcud üstünlük nə qədər davam edə bilər? ABŞ-ın qlobal liderliyi xüsusilə İkinci Dünya müharibəsindən sonra formalaşmışdı. 1945-ci ildə Avropanın böyük hissəsi müharibədən dağıntılarla çıxarkən ABŞ həm iqtisadi, həm də hərbi baxımdan misilsiz üstünlüyə malik idi. Həmin dövrdə ABŞ dünya sənaye istehsalının böyük hissəsinə nəzarət etməklə yanaşı, dünyanın ən böyük maliyyə ehtiyatlarına sahib idi.

1944-cü ildə Bretton Woods sisteminin yaradılmasıyla ABŞ dolları beynəlxalq maliyyə sisteminin əsas valyutasına çevrildi. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılması, 1949-cu ildə NATO-nun təsis edilməsi və sonrakı dövrdə ABŞ-ın texnologiya sahəsində liderliyi Vaşinqtonun qlobal təsir imkanlarını daha da genişləndirdi. Bu üstünlük yalnız maddi gücə əsaslanmırdı; ABŞ universitetləri, elmi mərkəzləri, kino sənayesi, texnologiya şirkətləri və innovasiya ekosistemi vasitəsilə qlobal cazibə mərkəzi yaratdı. Lakin XXI əsrdə bu model ciddi dəyişikliklərlə üzləşir. Dünyanın iqtisadi ağırlıq mərkəzi tədricən Asiyaya doğru hərəkət edir. Çin, Hindistan və digər Asiya dövlətlərinin yüksəlişi qlobal sistemdə yeni balans yaradır. Çinin inkişafı müasir tarixdə ən böyük iqtisadi transformasiyalardan biri hesab olunur. 1978-ci ildə Den Syaopinin başlatdığı iqtisadi islahatlardan sonra Çin qısa müddət ərzində dünyanın ən böyük istehsal mərkəzlərindən birinə çevrildi. Dünya Bankının məlumatlarına əsasən, son onilliklər ərzində Çində yüz milyonlarla insan yoxsulluq səviyyəsindən çıxıb və ölkə qlobal iqtisadi artımın əsas mühərriklərindən biri olub. Bu yüksəliş təsadüfi proses deyildi - Çin əvvəlcə istehsal gücünü artırdı, sonra texnologiya, infrastruktur, elm və innovasiya sahələrinə böyük investisiyalar yönəltdi. Bu gün Çin dünyanın ən böyük ixracatçılarından biridir, qlobal tədarük zəncirlərinin mərkəzində dayanır və bir sıra texnoloji sahələrdə ABŞ-la rəqabət aparır. Lakin Çinin yüksəlişi yalnız iqtisadi məsələ kimi qiymətləndirilmir, həm də beynəlxalq sistemdə güc balansının dəyişməsi kimi qəbul olunur. ABŞ-Çin rəqabəti artıq klassik iqtisadi rəqabətdən daha geniş məna daşıyır. Bu qarşıdurmanın əsas istiqamətləri texnologiya, yarımkeçiricilər, süni intellekt, kosmos, hərbi imkanlar və qlobal təsir uğrunda mübarizədir.

Sinqapur Milli Universitetinin professoru Kishore Mahbubani uzun illərdir beynəlxalq münasibətlərdə baş verən əsas dəyişikliklərdən birinin Qərb mərkəzli dünya modelindən daha çoxqütblü və Asiyanın artan rol oynadığı sistemə keçid olduğunu vurğulayır. Onun yanaşmasına görə, bu proses Qərbin siyasi, iqtisadi və mədəni baxımdan tam zəifləməsi kimi başa düşülməməlidir. Əsas dəyişiklik ondan ibarətdir ki, dünya iqtisadiyyatında və beynəlxalq siyasətdə əvvəllər ikinci planda olan regionlar daha fəal aktorlara çevrilir. Mahbubani hesab edir ki, tarixin müəyyən dövrlərində Asiya dünya iqtisadiyyatının əsas mərkəzlərindən biri olub. XVIII əsrə qədər Çin və Hindistanın dünya iqtisadiyyatında böyük payı vardı. Lakin Avropada sənaye inqilabının başlanması, sonradan Şimali Amerikanın sürətli inkişafı nəticəsində iqtisadi və siyasi üstünlük tədricən Qərbə keçdi. XX əsrdə ABŞ-ın liderliyinin formalaşması məhz bu tarixi dəyişimin nəticəsi idi. Onun fikrincə, XXI əsrdə baş verən proses müəyyən mənada tarixi balansın yenidən dəyişməsidir. Asiya ölkələrinin iqtisadi yüksəlişi dünya iqtisadiyyatındakı çəkilərinin artmasına səbəb olur. Çin, Hindistan, Cənubi Koreya, Sinqapur və digər Asiya dövlətlərinin inkişafı göstərir ki, qlobal iqtisadi dinamika artıq yalnız Avropa və Şimali Amerika tərəfindən müəyyən olunmur.

Bu yanaşmada əsas məqam ondan ibarətdir ki, dünya siyasətində güc anlayışı dəyişir. Əvvəllər qlobal liderlik əsasən hərbi üstünlük və ərazi nəzarəti ilə əlaqələndirilirdisə, müasir dövrdə iqtisadi potensial, texnologiya, innovasiya, istehsal imkanları və insan kapitalı daha mühüm rol oynayır. Asiya ölkələri məhz bu sahələrdə böyük irəliləyiş əldə edərək beynəlxalq sistemdə daha böyük təsir imkanları qazanır. Lakin Mahbubani nin bu prosesi "Qərbin süqutu" kimi təqdim etmir, əksinə, onun yanaşmasına görə, ABŞ və Avropanın elmi, texnoloji, maliyyə və institusional üstünlükləri hələ də çox böyükdür. Dünyanın ən güclü universitetlərinin əhəmiyyətli hissəsi ABŞ və Avropada yerləşir, qlobal maliyyə sistemində dolların və avronun rolu yüksək olaraq qalır, NATO kimi təhlükəsizlik strukturları Qərbin təsir imkanlarını qoruyur.

Burada əsas dəyişiklik hegemonluğun tam əvəzlənməsindən daha çox, güc mərkəzlərinin sayının artmasıdır. Başqa sözlə, dünya əvvəlki kimi yalnız bir neçə Qərb dövlətinin müəyyən etdiyi sistem üzrə inkişaf etmir. Yeni reallıqda Asiya, Afrika və digər inkişaf etməkdə olan regionlar daha fəal mövqe tutur. Bu yanaşma beynəlxalq münasibətlərdə mühüm sual yaradır: Çinin yüksəlişi və Asiyanın güclənməsi Qərb üçün təhlükədirmi, yoxsa qlobal sistemin təbii transformasiyasıdır? Mahbubaninin mövqeyinə görə, bunu qarşıdurma kimi qəbul etmək düzgün yanaşma olmaz, çünki qlobal iqtisadiyyat artıq qarşılıqlı asılılıq üzərində qurulub. ABŞ, Avropa və Asiya iqtisadiyyatları ticarət, investisiya, texnologiya və maliyyə əlaqələri ilə bir-birinə bağlıdır. Bir regionun inkişafı avtomatik olaraq digər regionların zəifləməsi anlamına gəlmir, lakin bu dəyişikliklər mövcud lider dövlətlər üçün yeni çağırışlar yaradır. Tarix göstərir ki, böyük güclər öz üstünlüklərini qorumaq üçün daim yenilənməlidir. Böyük Britaniya sənaye üstünlüyünü itirəndə ABŞ yüksəldi. ABŞ isə bu gün texnoloji, iqtisadi və institusional üstünlüklərini qorumaq üçün yeni rəqabət mühitinə uyğunlaşmalıdır.

Mahbubaninin yanaşmasının əsas mesajı bundan ibarətdir: XXI əsrin əsas xüsusiyyəti bir dövlətin digərini tam əvəzləməsi olmayacaq. Daha mürəkkəb, çoxmərkəzli və qarşılıqlı asılı beynəlxalq sistem formalaşacaq. Bu baxımdan Çinin yüksəlişi yalnız Çinin güclənməsi kimi deyil, dünya iqtisadi və siyasi sistemində tarixi çəkilərin yenidən bölüşdürülməsi kimi qiymətləndirilməlidir. Əsas məsələ bu dəyişimin qarşıdurmaya, yoxsa əməkdaşlığa əsaslanan yeni beynəlxalq model yaradacağıdır. Bu yanaşmalar göstərir ki, ABŞ-Çin münasibətlərini sadəcə "qalib və məğlub" modeli ilə izah etmək mümkün deyil.

Qarşıdakı dövrdə əsas məsələ hansı dövlətin tam üstünlük qazanması yox, yeni güc balansının necə formalaşacağıdır, çünki XXI əsr dünya siyasəti əvvəlki əsrlərdən fərqlənir. İqtisadi qarşılıqlı asılılıq, qlobal istehsal zəncirləri və beynəlxalq institutlar böyük dövlətləri belə bir-birindən tam ayırmağa imkan vermir. Bu səbəbdən ABŞ və Çin arasındakı rəqabət eyni zamanda əməkdaşlıq elementlərini də özündə saxlayır. İki ölkə arasında texnoloji və strateji rəqabət mövcud olsa da, qlobal iqtisadiyyat onların qarşılıqlı əlaqəsini zəruri edir. Yeni dünya sisteminin gələcəyi məhz bu ziddiyyətlərin necə idarə olunacağından asılı olacaq.

**ABŞ-Çin rəqabətinin əsas cəbhələri: iqtisadiyyat, texnologiya və qlobal təsir uğrunda mübarizə**

ABŞ-la Çin arasındakı rəqabət XXI əsrin ən mühüm geosiyasi hadisələrindən birinə çevrilib. Ancaq bu rəqabəti yalnız iki böyük dövlət arasında adi siyasi qarşıdurma kimi qiymətləndirmək kifayət deyil. Burada söhbət gələcəyin beynəlxalq sisteminin necə qurulacağından, qlobal iqtisadi qaydaları kimin formalaşdıracağından və strateji texnologiyalara kimin daha çox nəzarət edəcəyindən gedir. Tarix göstərir ki, böyük dövlətlər arasında liderlik mübarizəsi yalnız hərbi güc əsasında aparılmayıb. XIX əsrdə Böyük Britaniyanın üstünlüyünü təmin edən əsas amillərdən biri sənaye inqilabı və dəniz ticarətinə nəzarət idi. XX əsrdə ABŞ-ın yüksəlişinin əsas səbəbləri isə güclü sənaye bazası, elmi potensial, maliyyə sistemi və texnoloji innovasiyalar oldu. XXI əsrdə isə əsas rəqabət sahələri dəyişir. İqtisadiyyat, məlumat, yüksək texnologiyalar, kritik infrastruktur və qlobal təchizat zəncirləri yeni güc mübarizəsinin əsas istiqamətlərinə çevrilir. ABŞ və Çin arasındakı iqtisadi münasibətlər bu rəqabətin ən mürəkkəb tərəflərindən biridir. Bir tərəfdən, iki ölkə arasında ciddi strateji qarşıdurma mövcuddur, digər tərəfdən, dünya iqtisadiyyatının ən böyük hissəsi bu iki dövlət arasındakı ticarət və maliyyə əlaqələrindən asılıdır.

Çin uzun illər ərzində dünyanın əsas istehsal mərkəzinə çevrildi. 2001-ci ildə Ümumdünya Ticarət Təşkilatına üzv olduqdan sonra Pekin qlobal iqtisadi sistemə daha dərindən inteqrasiya olundu. Xarici investisiyaların cəlb edilməsi, böyük əmək bazarı, istehsal imkanları və ixrac yönümlü iqtisadi model Çini qısa müddətdə dünyanın ən mühüm iqtisadi güclərindən birinə çevirdi. Bu proses ABŞ şirkətləri üçün də böyük imkanlar yaratdı, bir çox Amerika şirkəti istehsal zəncirlərinin müəyyən hissəsini Çinə köçürüb Çin bazarında fəaliyyət göstərməyə başladı. Nəticədə iki ölkə arasında iqtisadi qarşılıqlı asılılıq formalaşdı. Lakin son illər bu model dəyişməyə başlayıb. ABŞ Çinin bəzi strateji texnologiyalara çıxışını məhdudlaşdırmağa çalışır, Çin isə kritik sahələrdə xarici asılılığını azaltmaq siyasəti yürüdür. Bu proses iqtisadi münasibətlərin "qarşılıqlı fayda" mərhələsindən "strateji rəqabət" mərhələsinə keçdiyini göstərir. ABŞ-ın əsas narahatlıqlarından biri Çinin texnoloji sahədə sürətli inkişafıdır. Vaşinqton hesab edir ki, müəyyən texnologiyalar yalnız kommersiya məhsulu deyil, həm də milli təhlükəsizlik elementidir. Xüsusilə yarımkeçiricilər, yüksək hesablama sistemləri, süni intellekt və telekommunikasiya infrastrukturu gələcəyin strateji sahələri kimi qiymətləndirilir. ABŞ hökuməti son illər yüksək texnologiyaların ixracına nəzarəti gücləndirib. Məqsəd Çinin ən qabaqcıl çiplərə və istehsal avadanlıqlarına çıxış imkanlarını məhdudlaşdırmaqdır. Bu addımlar göstərir ki, texnologiya artıq yalnız iqtisadi rəqabət sahəsi deyil, böyük dövlətlər arasında strateji üstünlük uğrunda mübarizənin əsas elementidir. Bu məsələyə müxtəlif ekspert yanaşmaları var.



ABŞ-Çin münasibətlərinin gələcəyi ilə bağlı mühüm yanaşmalardan biri də ABŞ-ın Çin siyasətinin formalaşmasında birbaşa iştirak etmiş ekspert Evan S. Medeiros tərəfindən irəli sürülür. Medeiros ABŞ-Çin münasibətləri, Asiya-Sakit okean regionunda təhlükəsizlik və böyük dövlətlər arasında strateji rəqabət məsələləri üzrə dünyanın tanınmış mütəxəssislərindən biridir, hazırda Corc Vaşinqton Universitetinin Elliott School of International Affairs məktəbində Asiya üzrə professor kimi fəaliyyət göstərir. Bundan əvvəl o, ABŞ Prezidenti Barak Obama administrasiyasında Milli Təhlükəsizlik Şurasının Asiya məsələləri üzrə baş direktoru (Special Assistant to the President and Senior Director for Asian Affairs at the National Security Council) vəzifəsində çalışıb. Bu vəzifə ona ABŞ-ın Çin, Yaponiya, Cənubi Koreya və digər Asiya ölkələri üzrə təhlükəsizlik və xarici siyasət strategiyalarının hazırlanması prosesində birbaşa iştirak etmək imkanı verib. Medeiros daha əvvəl nüfuzlu tədqiqat mərkəzlərindən biri olan RAND Corporation-da da çalışıb və Asiya təhlükəsizliyi, Çin xarici siyasəti və ABŞ-ın regional strategiyası ilə bağlı geniş araşdırmalar aparıb. Buna görə onun ABŞ-Çin münasibətləri ilə bağlı fikirləri yalnız akademik nəzəriyyəyə deyil, həm də dövlət siyasətinin hazırlanması təcrübəsinə əsaslanır.

Medeirosun əsas tezisi ondan ibarətdir ki, ABŞ-la Çin arasında rəqabət artıq uzunmüddətli xarakter daşıyır və bu rəqabətin yaxın illərdə aradan qalxacağı gözlənilmir. Lakin onun fikrincə, əsas məsələ rəqabətin mövcudluğu deyil, bu rəqabətin hansı formada idarə olunacağıdır. Onun yanaşmasına görə, ABŞ və Çin iqtisadi, texnoloji və strateji sahələrdə bir-biriylə rəqabət aparacaq, amma bu rəqabətin nəzarətsiz qarşıdurmaya çevrilməsi həm iki ölkə, həm də bütün dünya üçün ciddi təhlükələr yarada bilər. Medeiros hesab edir ki, böyük dövlətlər arasında rəqabət qaçılmaz ola bilər, lakin rəqabətin müharibəyə çevrilməsi qaçılmaz proses deyil. Bunun üçün diplomatik kanalların açıq saxlanması, hərbi sahədə yanlış hesablamaların qarşısının alınması və böhranların idarə olunması mexanizmlərinin yaradılması vacibdir.

Bu yanaşma xüsusilə Tayvan məsələsi, Cənubi Çin dənizində təhlükəsizlik və texnoloji məhdudiyyətlər fonunda mühüm əhəmiyyət daşıyır, çünki ABŞ və Çin arasında mümkün böhran yalnız iki dövlətin münasibətlərinə təsir göstərməyəcək, belə bir münaqişə qlobal iqtisadiyyat, enerji bazarları, beynəlxalq ticarət və təhlükəsizlik sisteminə də ciddi təsir edə bilər. Medeirosun fikrincə əsas məqam ondan ibarətdir ki, XXI əsrin başlıca geosiyasi vəzifələrindən biri rəqabət aparan böyük dövlətlər arasında sabitlik yaratmaqdır. Onun fikrincə, ABŞ-ın məqsədi Çinin yüksəlişini tam dayandırmaq yox, Çinlə rəqabəti elə idarə etmək olmalıdır ki, beynəlxalq sistemdə sabitlik qorunsun və təhlükəli eskalasiya baş verməsin. Bu yanaşma ABŞ-Çin münasibətlərinə daha realist baxış sərgiləyir. Mövcud reallıq göstərir ki, ABŞ və Çin arasında tam ayrılma mümkün deyil: Çin qlobal istehsal sisteminin əsas mərkəzlərindən biridir, ABŞ isə dünya maliyyə və texnologiya sistemində aparıcı mövqeyə malikdir. İki dövlət arasındakı qarşıdurmanın həddindən artıq kəskinləşməsi bütün dünya iqtisadiyyatına mənfi təsir göstərə bilər. Medeirosun mövqeyi əslində bir xəbərdarlıq xarakteri daşıyır: böyük dövlətlər arasındakı rəqabət düzgün idarə olunmayanda iqtisadi və texnoloji mübarizə tədricən təhlükəsizlik böhranına çevrilə bilər. XXI əsrin əsas problemi isə rəqabətin qarşısını almaq deyil, onu beynəlxalq sabitliyi pozmayacaq şəkildə idarə etməkdir. Məhz buna görə ABŞ-Çin münasibətlərinin gələcəyi yalnız iki dövlətin güc nisbəti ilə müəyyən olunmayacaq. Əsas məsələ onların rəqabət şəraitində hansı qaydaları qəbul edəcəyi və qlobal sistem üçün hansı məsuliyyəti daşıyacağıdır.

Çinin qlobal strategiyasını təhlil edən digər mühüm ekspertlərdən biri Elizabeth C. Economy-dir. O, ABŞ-da Çin siyasəti üzrə ən tanınmış alimlərdən biri hesab olunur və uzun illər ərzində Pekinin daxili inkişaf modeli, xarici siyasəti və beynəlxalq ambisiyaları ilə bağlı araşdırmalar aparıb. Elizabeth C. Economy hazırda Stanford Universitetinin Hoover İnstitutunda (Hoover Institution, Stanford University) baş elmi əməkdaş (Hargrove Senior Fellow) kimi fəaliyyət göstərir və institutun "The United States, China, and the World" proqramında aparıcı tədqiqatçılardan biridir. O, əvvəllər Council on Foreign Relations (CFR) təşkilatında Asiya üzrə baş direktor vəzifəsində çalışıb, 2021-23-cü illərdə ABŞ Ticarət Nazirliyində Çin məsələləri üzrə yüksək səviyyəli məsləhətçi kimi fəaliyyət göstərib. Elizabeth C. Economynin əsas tədqiqat istiqamətləri Çin Kommunist Partiyasının idarəetmə modeli, Si Cinpin dövründə dövlət siyasətinin transformasiyası, Çinin texnoloji inkişaf strategiyası və Pekinin beynəlxalq sistemdə artan rolu ilə bağlıdır. O, "The Third Revolution: Xi Jinping and the New Chinese State" və "The World According to China" kimi əsərlərin müəllifidir. Elizabeth G.Economy hesab edir ki, Çinin yüksəlişini yalnız iqtisadi göstəricilərlə izah etmək kifayət deyil. Onun yanaşmasına görə, Pekinin uzunmüddətli strategiyası iqtisadi gücün artırılması ilə yanaşı, beynəlxalq sistemdə daha böyük siyasi və institusional təsir qazanmağa yönəlib. Economynin təhlillərində əsas diqqətçəkən məqam ondan ibarətdir ki, Si Cinpin dövründə Çin xarici siyasətini daha fəal mərhələyə keçirib. Əvvəlki dövrlərdə Pekinin əsas prioriteti daxili iqtisadi inkişaf və qlobal iqtisadi sistemə inteqrasiya idi. Lakin son illər Çin özünü yalnız dünya iqtisadiyyatının istehsal mərkəzi kimi yox, həm də beynəlxalq qaydaların formalaşmasında iştirak edən böyük dövlət kimi təqdim etməyə başlayıb. Onun fikrincə, Çin artıq mövcud beynəlxalq sistemdən sadəcə faydalanan ölkə mövqeyindən çıxaraq, həmin sistemin gələcək istiqamətinə təsir göstərmək istəyən aktora çevrilir.

**davamı növbəti sayımızda**



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## Şənbə üçün nəzm









*Gülay Tahirli*

***

Qanadlarını açaraq yox,
gözlərini qapayaraq uçur adamlar.
Hərəkətsiz dayananda atılır ən böyük addımlar.
ən uzun yollar da beləcə fəth edilir.

Şüşədən yox,
sevgidəndir ürəyin eynəyi.
Nə qədər çox sevsən,
o qədər çox görərsən.

Kirpiklərin qovuşmağı söküb atırmış
bütün tikanlı məftilləri,
sərhəd yox,
hüdud yox,
hər şey əlçatandır.

Bir buludun ətəyindən yapışıb
dünyanı damla-damla gəzə bilirəm.
sonra yolumu Günəşdən salıb sevgilimin yanaqlarında üzə bilirəm.

Nə zaman darıxsam,
əlimi ürəyimin üstünə qoyub
səndə oluram,
yeri gələndə mən sən də oluram, Allah!
Nə bilim, bəlkə də, günahkaram,
Bağışla...
Bağışla,
Bütün sərhədlərini aşıram, Allah!

Sonra...
Sonra unudursan hər şeyi...
Olub keçənləri,
ölüb köçənləri.
doğulub böyüdüyün o uçuq-sökük evi də...
Həyətdəki yamyaşıl ağac da
yavaş-yavaş tökür yarpaqlarını,
heç olmamış kimi
silinib gedir xəyalından...

Sonra unudursan hər şeyi...
Unudursan gecənin, gündüzün rəngini,
sən ki heç tuta bilmədin bu dünyanın ahəngini.
Əlifbandakı hərflər ölür,
rəqəmlər bircə-bircə düşür təqvimdən,
boşluqların rənginə boyanmış
o doğulduğun gün də
başqa günlər kimi sürüşür təqvimdən...

Sonra unudursan hər şeyi...
Qorxub bağırırsan güzgüdən boylanan o yad gözlərin dəhşətindən.
Qovuşa bilmir kirpiklər də
donmuş göz yaşları düşər deyə illərdir
qoruduğun o heykəl
ayılar, küsər deyə.

Sonra unudursan hər şeyi...
Kimdir bacın, qardaşın?
Sirdaşın, yoldaşın?
Kimsən sən?
Axı kimdir səni dünyaya gətirən qadın?

Sonra unudursan hər şeyi...
Qırıq-qırıq nə qalıbsa yadında
Üçüncü adam kimi baxırsan ona da...
Qonşunun ağrısını hiss edə bildiyin qədər
hiss edirsən özünü,
Sən çoxdan söndürmüsən ürəyinin
yanğısını, közünü...

Sonra unudursan hər şeyi...
unudursan
və başlayırsan yaşamağa...

***

Oğlum, bizim də küçələrdən
gülümsəyən adamlar keçəcək.
Sallanan qaş-qabaqlar quşların lələyinə
ilişib buralardan köçəcək.

Yer günəşin ətrafında fırlanan kimi,
bir də görəcəksən hansısa baba tutub
hansısa nənənin əlindən,
dolana-dolana rəqs edir.

Bu şəhərdə təbəssümlər çıxacaq taxta,
Sıxışdıracaq iki dodağı bir-birinə
yapışdıran, büzüşdürən nə varsa!

Yaşamağı öyrədən məktəblər açılacaq.
Ən yüksək maaşı şükran dərsi deyən
müəllimlər alacaqlar.

Oğlum, bu şəhərdə adamlarla pişiklər
dost olacaqlar,
İtlər insanların sevgisindən
məst olacaqlar.
Əl-ələ tutub gülləni atacaqlar
mərhəmətsizliyin yuvasına.

Ay mənim qaraqaş, qaragöz balam,
Ay kirpikləri uzunum!
Bu şəhərdə atalar gecə rahat yatacaqlar,
Yorğanın altında qısılıb
qollarını alınlarına, əllərini ürəklərinə qoymadan.
Alınlarını köynəyin qollarına silə-silə
şalvarların ciblərini yoxlamadan...

Qaça-qaça keçməyəcəklər adamlar
ağacların yanından,
Görüb keçəcəklər,
Duyub keçəcəklər.
Sanma, ağacları yenə kəsəcəklər.
Bu şəhərdə binalar utanacaq ağacların
yerində durmağa.

Ay mənim qaraqaş, qaragöz balam,
Ay kirpikləri uzunum!
Gec oldu daha, gəl yataq.
Lay-lay... Lay-lay...
Ay mənim qaraqaş, qaragöz balam,
Ay kirpikləri uzunum!

# Robotlar robotu

### *Olacaq. Bəs mədəniyyət hara gedəcək?*



*Məqsəd Nur*

O vaxt mədəniyyətin harada olduğunu soruşan olacaqmı? Bəlkə də, gələcək haqqında bu cür şişirtmələr bizi reallıq hissindən qoparıb kənara atan ən güclü fırtınadır? Başımızı elə itiririk ki... o fırtınanı sakit qarşılaya bilsək və ya gələcək təhdidlərə təmkinlə sinə gərsək, nə qazanarıq? Vaxt? Deyəsən, indi ən mühüm qazanc sürətlə uçan qanadlı vaxt qatarının içərisində öz kupemizə yerləşib düşünməyə vaxt ayıra bilməyimizdir. Əgər o qatara geciksən necə? Haralardasa - mağarada ilişib qalsan?

İlon Mask deyir ki, yaxın illərdə Robotlar robotu olacaq. Humanoid robotlar beyin interfeysi şirkəti tərəfindən yaradılıb idarə ediləcək, hətta yeraltı şəhərlərdə (mağaralarda) onların dünyası əmələ gətiriləcək. Qısacası, Robot özü robot istehsal etməyə başlayacaq və bununla da, ABŞ daha da supergüc olacaq. Bax onda ucuz işçi qüvvəsi, sənayedə yüksəliş və nəhayət, Çinin insan sayına arxalanan üstünlüyünə qalib gəlmək olar. 1971-ci ildən ABŞ cəmiyyəti qocalmaya meyillənib, əhalinin artım tempi və sosial vəziyyət elə bir həddə çatıb ki, hər tərəfi tənbəllik basıb gedir. Elə bu səbəbdən də ABŞ biznesi, sənayesi vaxtilə Çinə köçüb, çiçəklənib və indi də Çini çiçəkləndirib. Çin isə elə bir həddə çatıb ki, bu çiçəklənən əjdahanın qabağını almaq vaxtıdır...

Robotlar gələcək və hər şeyi yoluna qoyacaq! Yaxşı, Bəs Çin hara gedəcək? Onda da ABŞ uzun onilliklər Çində insan azalmasını gözləməli olacaq ki, axır Robotlar robotu dünyada at oynada bilsin. Zarafat deyil, Robot tərəfindən at sürə bilmək də yaxın gələcəyin işidir...

Son vaxtlar ABŞ-da İlon Maskın üstünə düşüblər ki, bəs axı “Space X” şirkəti kosmosa raket buraxma və peyk interneti satmaqla gəlirsiz işlədiyi halda, əldə etdiyi trilyon dollar necə formalaşır? Özləri də bu suala sadə cavablar verirlər. Xəyallar quraraq məlumat mərkəzlərinin kosmosa yerləşdirilməsi və insanları Marsa göndərmək kimi əlçatmaz, nəhəng məqsədlərə inandırmaq. Bu yolla da 2030-cu ilədək investorları 1 trilyon dollar qazanacaqlarına əmin etmək. Masksayağı - Gələcək Uğrunda mərc etmək! Siyasətə qoşularaq yeni mədəniyyət formalaşdırmaq...

Bax əsas budur! Mədəniyyət formalaşdırmaq. Mədəniyyət də elə bundan - bu fırtınalara qarşı durmaqdan yaranacaq, ya da özü-özünü yaradacaq - axı mədəniyyət də ilkin, sadə, canıbərk rüşeym kimidir. O, mağaralarda da yarana bilər. Mədəniyyətə nə fərqi, öz ritmindədir və robotlara tabe olmaya da bilər. Yaxud əksinə, robotlar mədəniyyətdən imtina edər.

Belə çıxır ki, Robotlar robotu gəlsə, mədəniyyət mağarada olacaq...

# Gözümüzə işıq verənlər...

## Oftalmoloqların peşə bayramıdır

Görmə qabiliyyəti insan üçün ən qiymətli nemətlərdən biridir. Gözlərimiz ətraf aləmi dərk etməyə, rəngləri seçməyə, həyatın gözəlliklərini görməyə imkan verir. Bu baxımdan, oftalmologiya müasir tibbin ən məsuliyyətli sahələrindən biridir. Oftalmoloqların hər bir düzgün diaqnozu və uğurlu müalicəsi insan həyatında yeni ümid yaradır. Bu peşə yalnız bilik və peşəkarlıq yox, həmçinin yüksək məsuliyyət, səbir və diqqət tələb edir.

Artıq 22 ildir ki, hər il avqustun 8-i Beynəlxalq Oftalmologiya Günü və ya Beynəlxalq Oftalmoloq Günü kimi qeyd edilir. Həmin günün qeyd edilməsi göz cərrahiyyəsi sahəsində çox böyük uğurlara imza atmış professor, mikrocərrah-oftalmoloq, Rusiya Tibb Elmləri Akademiyasının akademiki Svyatoslav Fyodorovun doğum günü ilə əlaqədardır.

Həmin günün təsis edilməsi ideyası isə Sankt-Peterburq şəhər Tibb Palatasının prezidenti Tamaz Mçelidzeyə məxsusdur. O, həmin gün rus və xarici ölkə oftalmoloqlarına göz xəstələrinə təmənnasız məsləhətlər vermək, göz nurunu itirənlər və ya görmə qabiliyyəti zəif olanların müalicəsi üçün əməliyyatlar aparmaq barədə müraciət edib. Belə bir tədbirin keçirilməsi məşhur göz cərrahı S.Fyodorovun başlatdığı xeyriyyə işinin davam etdirilməsi və xatirəsinin yad olunması məqsədi daşıyır. Həmin təşəbbüsə təkcə Rusiyada deyil, Yunanıstan, İtaliya, Çexiya, ABŞ və digər ölkələrdə də tərəfdar çıxıblar.

Görmə qabiliyyətini itirmiş insan sanki qanadı qırılmış quşa bənzəyir. Gözlərimiz informasiya, hiss və emosiyadır. Ətraf mühiti tanımaqda və duymaqda bizə yardımçı olan ən əsasduyğu üzvümüzdür. Gözlərimiz olmasaydı, bizi əhatə edən gözəllikləri, dünyanı tanıya bilməzdik. Ona görə də insan gözməsini itirdiyi anda, özünü hər şeydən məhrum olmuş kimi hiss edir.

### Müasir oftalmologiya

Müasir oftalmoloji diaqnostika üsulları göz xəstəliklərini erkən mərhələlərdə aşkar etməyə, səmərəli müalicə və profilaktika aparmağa imkan verir. Lakin mütəxəssislər onun profilaktikası ilə məşğul olmağı daha vacib hesab edirlər.

Həkim və mütəxəssislər zərərli vərdişlərdən uzaq olmağı, gözləri Günəşin ultrabənövşəyi şüalarından qorumaq üçün keyfiyyətli gün eynəklərindən istifadə etməyi, qanda şəkərin, təzyiq və xolesterinin səviyyəsini nəzarətdə saxlamağı, A vitamini, Omeqa-3 və antioksidantlarla zəngin məhsullarla qidalanmağın vacib olduğunu bildirirlər. Həkimlər xüsusilə uşaqların 3D formatında çəkilmiş fillərə baxmağını məsləhət görmürlər.

Azərbaycanda gənc oftalmoloqların hazırlanması və oftalmologiyanın inkişafına akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi öz töhfəsini verir. Mərkəz beynəlxalq standartlara cavab verən müasir diaqnostik avadanlıqlarla təchiz olunub. Mərkəzdə oftalmologiyanın bütün sahələrini əhatə edən şöbələr və yüksək ixtisaslı mütəxəssislər fəaliyyət göstərir, həmçinin kataraktanın qarşısını alan, qlaukoma zamanı gözün funksional vəziyyətini bərpa edən və torlu qişa qopmaları zamanı itirilmiş görməni qaytaran lazer texnologiyalarının köməyi ilə müalicə aparılır.




Hazırda müasir tibb göz xəstəlikləri ilə yüksək səviyyədə mübarizə aparır. Amma

### Görmə funksiyasını itirən insanların 82 faizi...

hələ də insanlar gözə aid olmayan digər xəstəliklərin korluq yaradacağını bilmir. Təhlükə heç gözləmədiyiniz yerdən gələ bilər...

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada görmə funksiyasının pozulmasından əziyyət çəkən 2,2 milyard insan var. Xüsusi olaraq qeyd olunub ki, görmə funksiyasını itirən insanların 82 faizi 50-dən yuxarı yaş qrupuna daxildir. Görmə funksiyasının pozulmasından əziyyət çəkənlərin 19 milyonunu uşaqlar təşkil edir.

### Göz xəstəlikləri ilə mübarizə

Gözlərimiz daim qayğıya ehtiyacı olan ən həssas orqanlarımızdan biridir. Təbii olaraq gözlərdə müxtəlif genetik və ya ətraf mühitin təsirləri nəticəsində xəstəliklər yarana bilər. Göz xəstəlikləri göz qapaqlarında, göz yaşı kanallarında, gözün ətrafındakı sinir toxumalarında və s. meydana gələn bütün xəstəliklərdir.

Gözlərdə ağırlıq və ağrı hissi, gözə hər hansı bir cismin qaçması hissi, gözlərin tez-tez qaşınması və qızarıqlıq, sulanma, yaşarma, görmə qabiliyyətinin zəifləməsi, görmə sahəsinin daralması, göz qapaqlarında şişlik, gözləri qıyaraq baxmaq və.s kimi hallar göz xəstəliklərinin əlamətidir. Göz xəstəliklərinin yaranması üçün ən geniş yayılmış səbəblər bunlardır: Görməyə mane olan az və ya həddindən çox işıqlı yerdə çalışmaq, gözə yad cismin qaçması nəticəsində yaranan narahatlıqlar, diabet xəstəliyinin fəsadları, genetik amillər, gözlərdə quruluq, sinuzit, baş ağrısı, qrip və s. xəstəliklərinin əks təsirləri.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4485**
**Sifariş: 1017**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova